Günəş Şərqdən doğur!

№ 136 (5417), 2021-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Müstəqil İctimai-siyasi qəzet

www.sherg.az 4 avqust 2021-ci il (çərşənbə)

## Yoluxma sayı minə yaxınlaşır



Koronavirusdan 225 nəfər sağalıb, 4 nəfər vəfat edib

(səh.8)



## Ərdoğan İlham Əliyevə təşəkkür edib

Azərbaycan meşə yanğınları ilə mübarizəyə böyük dəstək verdi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan meşə yanğınları ilə mübarizədə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib.**

Bu barədə Rəcəb Tayyib Ərdoğan rəsmi "Twitter" hesabında paylaşım edib.

(səh.2)

# Deputat özünü bitirdi

## Eldəniz Səlimov barəsində həbs-qətimkan tədbiri seçilib

Dünən Milli Məclisin qərarı ilə deputat toxunulmazlığı ləğv olunan Eldəniz Səlimov barəsində məhkəmə prosesi keçirilib.




(səh.8)

# Bakıda 32 naməlum məzar açıldı

## Şəhidlər Xiyabanındakı naməlum şəhidlərin kimliyi müəyyənləşdirilir




(səh.8)

### Altı nazir təyin edildi

Paşinyan yeni hökumətini formalaşdırır

(səh.2)

### Bu gün polis, sabah deputat döyülə bilər

Milli Məclis Eldəniz Səlimova görə yığışıb qərar verdi

(səh.3)

### Bakı Minsk qrupuna güzəştə getməyəcək

Yeni şərtlərə uyğun gündəlik tərtib olunmalıdır

(səh.5)

### "Dərmanlar qəbul edirəm..."

Vaqif Bayatlı Odər: "Allahın köməkliyi ilə yaxşı olar"

(səh.7)

# Bakıda "ASAN xidmət"in növbəti mərkəzinin açılışı olub

## Prezident İlham Əliyev mərasimdə iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib. Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev dövlətimizin başçısına Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan bu "ASAN xidmət" mərkəzi barədə məlumat verdi.**

Qeyd edək ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır.

Təsadüfi deyil ki, dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir. Dövlətimizin başçısının təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi və innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanındı.

Məlumat verildi ki, 6 saylı Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir.

Bildirildi ki, hazırda fəaliyyət göstərən 20 "ASAN xidmət" mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək "ASAN xidmət"ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir.

Prezident İlham Əliyevin ötən ilin dekabrında imzaladığı Fərmanla yaradılan "YAŞAT" Fondunun dəstəyi ilə Vətən müharibəsi qazilərinin sağlamlıqlarının bərpa olunması istiqamətində çox mühüm işlər görülüb. Şəhid ailələri üzvlərinin və yaralıların 1152 müraciəti üzrə 3,8 milyon manat kreditləri "YAŞAT" Fondu tərəfindən ödənilib. 5667 müraciət üzrə şəhid ailəsi üzvlərinin və yaralı hərbçinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 22,6 milyon manat, bu qəbildən olan 2357 şəxsin tibb və xaricdə təhsil haqlarının ödənilməsi üçün isə 5.6 milyon vəsait ayrılıb. 120 ağır yaralı müalicə üçün Türkiyəyə göndərilib. Onların 64 nəfəri tam sağalıb, 56 nəfər isə hazırda müalicədədir. Bundan başqa, "Onlar bizə əmanət" layihəsi çərçivəsində Vətən müharibəsindən sonra dünyaya gələn 100 şəhid övladına 1000 manat məbləğində maddi yardım olunub, onların adına 5000 manat məbləğində depozit hesab açılıb.

Prezident İlham Əliyevin 2020-ci ilin noyabrında imzaladığı Sərəncama uyğun olaraq yaradılan vahid məlumat bazasında Vətən müharibəsi zamanı mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı ətraflı məlumat yerləşdirilib.

Dövlətimizin başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verildi. Qeyd edək ki, müharibə dövründə ilk yerdə dövlətimizin başçısının tvitləri dayanıb. Bu tvitlərə 396 min baxış olub. #karabakhisazerbaijan həştəqi 800 mindən çox paylaşılmaqla bu mövzuda ən çox paylaşılan həştəq olub. Prezident İlham Əliyevə ASAN sosial innovasiyalar texnoparkı, Görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN ICESCO mükafatı barədə də məlumat verildi.

## Ərdoğan İlham Əliyevə təşəkkür edib

### Azərbaycan meşə yanğınları ilə mübarizəyə böyük dəstək verdi



**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan meşə yanğınları ilə mübarizədə verdiyi dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə təşəkkür edib.**

APA-nın xəbərinə görə, bu barədə Rəcəb Tayyib Ərdoğan rəsmi "Twitter" hesabında paylaşım edib.

"Meşə yanğınları ilə mübarizəmizə dəstəyini, keçmiş olsun diləklərini, başsağlığını göndərən, kömək etməyə hazır olduğunu bildirən və yardım göndərən bütün dost ölkələrə və təşkilatlara millətim adından təşəkkür edirəm. İnşallah, bu çətin prosesi ən qısa zamanda keçəcəyik.

Xüsusilə ilk andan etibarən göstərdikləri dəstəyə görə can Azərbaycanın Prezidenti, əziz dostum İlham Əliyevə, Rusiya Prezidenti Vladimir Putinə və İspaniyanın Baş naziri Pedro Sançesə ölkəm adından təşəkkürümü bildirirəm", - deyə Türkiyə Prezidenti qeyd edib.

Türkiyə Prezidenti İran Prezidenti İbrahim Rəisiyə, Qətər Əmiri Şeyx Tamimə, Xorvatiya Baş naziri Zoran Milanoviçə və Ukrayna Prezidenti Vladimir Zelenskiyə də yanğınla mübarizədə göstərdikləri köməyə görə minnətdarlığını bildirib.

## "Aİ-98" markalı benzinin də qiyməti qalxdı

### Səbəb mənbə ölkələrdə məhsulun qiymətinin artmasıdır

**"Aİ-98" super markalı benzinin qiymətində dəyişiklik edilib.**

Bunu Oxu.az-a açıqlamasında "SOCAR Petroleum" QSC-nin mətbuat katibi Üzeyir Həbibbəyli təsdiqləyib.

O bildirib ki, ölkədə "Aİ-98" super markalı benzinin qiyməti 5 qəpik artaraq 1,60 AZN olub:

"Aİ-98" markalı benzini xarici ölkədən idxal edirik. Məhsulun alış qiymətinin artması onun ölkəmizdə satış qiymətinin artmasına səbəb olub. Mənbə ölkələrdə məhsulun qiyməti artıb".

Qeyd edək ki, "Aİ-98" super markalı benzinin qiyməti daha əvvəl 15 qəpik artaraq 1 manat 55 qəpiyə satılırdı.

*Xatırladaq ki, bir neçə gün əvvəl Azərbaycanda "Aİ-95" premium markalı benzinin qiyməti də 5 qəpik artaraq 1,45 AZN olmuşdu.*

## Altı nazir təyin edildi

### Paşinyan yeni hökumətini formalaşdırır



**Ermənistan prezidenti Armen Sarkisyan ölkədə altı nazir və baş nazirin müavininin təyinatı ilə bağlı sərəncamlar imzalayıb.**

Trend-in erməni KİV-lərinə istinadən məlumatına görə, baş nazirin müavini vəzifəsində Mger Qriqoryan qalıb. Əvvəlki hökumətdən Vaan Kerobyan iqtisadiyyat naziri, Anait Avanesyan səhiyyə naziri vəzifələrini saxlayıb. Sabiq ombudsmen Karen Andreasyan ədliyyə naziri, sabiq iqtisadiyyat naziri Tiqran Xaçatryan isə maliyyə naziri təyin olunub.

*Qeyd edək ki, ötən gün A.Sarkisyan Nikol Paşinyanın baş nazir təyin olunması ilə bağlı sərəncam imzalamışdı. Eyni zamanda, Arşak Karapetyan müdafiə naziri təyin olunmuşdu.*

## "Bayrağı yanmağa qoymarıq!"

### Türkiyə azərbaycanlı yanğınsöndürəndən danışır

**Meşə yanğınlarının səngimək bilmədiyi Türkiyədə qardaşlarımıza Azərbaycan Fövqəladə Hallar Nazirliyinin yolladığı yanğınsöndürənlər qrupları yardım edir.**

Hazırda qardaş Türkiyədə yüzlərlə azərbaycanlı yanğınsöndürən alovlarla mübarizə aparır.

Onların arasında əsl qəhrəmanlıq edənlər həddən ziyadədir.

Muğla vilayətinin Marmaris rayonunda yanğınsöndürən Kamil Dünyamalıyev yanan evə girərək oradakı insanları xilas etmək istəyib. Fəqət, evdə kimsənin olmadığını, Türkiyə bayrağının divardan asıldığını görüb.

Olay Hisarönü məhəlləsində yaşanıb.

Bayrağı sinəsinə sıxan K.Dünyamalıyev çölə çıxanda reportyorlarla qarşılaşıb.

Digər yanğınsöndürənimiz, Nail Qabilov da od-alovun içindən Türkiyə bayrağını çıxarıb.

"Bayraq bizim hər şeyimizdir, müqəddəsdir. Onu yanmağa qoymarıq. Türk xalqını sevirik və hər zaman yanındayıq. Azərbaycan hər zaman Türkiyənin yanında olacaq", - Nail söyləyib.



# Bu gün polis, sabah deputat döyülə bilər

## Milli Məclis Eldəniz Səlimova görə yığışıb qərar verdi



Dünən Milli Məclisin növbədənkənar sessiyasının plenar iclası keçirilib. Toplantıda deputat Eldəniz Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında məsələ müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra məsələ səsverməyə çıxarılaraq qəbul edilib və 98 deputat qərarın lehinə səs verib. Xatırladaq ki, deputatın toxunulmazlığına xitam verilməsi barədə Milli Məclisin qərarı azı 63 səs çoxluğu ilə qəbul edilir. Konstitusiyanın 89-cu maddəsinə əsasən, cinayət törətdikdə və məhkəmənin qanuni qüvvəyə minmiş hökmü olduqda isə Milli Məclis üzvü mandatından məhrum edilir.

**"Deputat polis əməkdaşına qarşı zorakılıq edib"**

**Növbədənkənar sessiyada Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev deputat Eldəniz Səlimovun toxunulmazlığına xitam verilməsi haqqında təqdimatla çıxış edib.** Baş prokuror deputatları təqdimata səs verməyə çağırıb. K.Əliyev deyib ki, Azərbaycanda pandemiya ilə mübarizədə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla mübarizə aparılır. Birinci vitse-prezident Mehriban Əliyeva da bu mübarizəyə mühüm töhfə verir: "Nazirlər Kabineti yanında Operativ Qərargahın koordinasiyası ilə bu sahədə ardıcıl işlər görür. Bu sahədə əsas ağırlıq Daxili İşlər Nazirliyinin əməkdaşlarının üzərinə düşür. Milli Məclisin deputatı Eldəniz Səlimov polis əməkdaşı Zaur Mirzəyevin 6 polis əməkdaşı ilə birgə iyul ayının 29-da saat 01 radələrində Xaçmaz şəhərində yerləşən, Eldəniz Səlimovun qohumuna məxsus "Starıy Dvor" restoranına gəldiyini və karantin qaydalarına uyğun olaraq restoranın gecə saat 12-dən sonra işləməməsini tələb etdiyini öyrənib. Eldəniz Səlimov bununla əlaqədar Zaur Mirzəyevin atası Cavanşir Mirzəyevə zəng vurub və Zaur Mirzəyevi restorana dəvət edib, ona qarşı zorakılıq edib". Baş prokuror bildirib ki, polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq edilməsi barədə Daxili İşlər Nazirliyindən daxil olmuş material Baş Prokurorluqda araşdırılıb. Hazırda iş üzrə intensiv istintaq hərəkətləri aparılır.

**"Deputat özünü heç kimdən üstün tutmamalıdır"**

**Parlament sədri Sahibə Qafarova deyib ki, Prezident İlham Əliyevin parlamentin açılışında çıxışındakı tövsiyələri hər birimizin yadındadır.** Spiker bildirib ki, deputat xalqın diqqət mərkəzindədir: "Deputat özünü heç kimdən üstün tutmamalıdır. Mən həmkarımızın deputata yaraşmayan hərəkəti ilə bağlı dərin təəssüfümü bildirirəm. İnanıram ki, gələcəkdə bu cür hadisələri müzakirə etmək məcburiyyətində qalmayacağıq. Baş prokurorun təqdimatında deputatın toxunulmazlığına xitam vermək üçün kifayət qədər əsas var".

**"Eldəniz Səlimov bağışlanmaz hərəkətə yol verib"**

**Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev deyib ki, Eldəniz Səlimov bağışlanmaz hərəkətə yol verib:** "Təəssüflər olsun ki, bu gün biz müzəffər Milli Məclisin bir üzvünün Azərbaycan zabitinə qarşı dələduzluğunu müzakirə edirik. Bizim deputat həmkarımız Eldəniz Səlimov bağışlanmaz hərəkətə yol verib". Onun sözlərinə görə, belə bir məsuliyyətsiz hərəkətin törədilməsi deputatların hər birinin nüfuzuna xələl gətirir: "Burada xuliqanlıq, özbaşınalıq, qanuna hörmətsizlik elementləri var. Biz qanunlar qəbul edirik. Eldəniz Səlimovun özü çıxış etsəydi daha yaxşı olardı. Biz o insanla YAP-da da siyasi həmfikir olmuşuq. Hesab edirəm ki, cəmiyyətin də diqqəti bu müzakirələrdir. Cəmiyyət də görsün ki, Milli Məclis belə hərəkətləri bağışlamır".

**"Heç bir toxunulmazlıq qanunları pozmağa haqq qazandırmır"**

**Milli Məclisin İntizam Komissiyasının üzvü Məlahət İbrahimqızı da bildirib ki, heç kəsin hüququn aliliyi qarşısında toxunulmazlığı yoxdur.** Onun fikrincə, qanunverici hakimiyyətin təmsilçisi isə hüququn aliliyinə müqəddəs bir prinsip, dəyər kimi hörmət etməlidir: "Ziyalılar, millət vəkilləri başqalarına nümunə olmalıdırlar. Həqiqətən də çox üzücü bir hadisədir. Milli Məclisin deputatına, millət vəkilinə, seçilmiş bir insana, ziyalıya yaraşmayan bir hərəkətdir. Xəbəri ilk dəfə mətbuatdan oxuyanda hələ Daxili İşlər Nazirliyi məsələyə münasibət bildirməmişdi. O zaman içimdən keçdi ki, kaş bu məsələ öz təsdiqini tapmayaydı. Çünki bir millət vəkilinin qanunvericiliyi tapdaması, ona zidd əməllər törətməsi, ictimai qaydaları pozması Milli Məclisin fəaliyyətinə, bəzən bütün millət vəkillərinin fəaliyyətinə kölgə sala bilir".

**"Sabah millət vəkilini də döyəcək kimlərsə ola bilər"**

**Parlamentin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc vurğulayıb ki, Azərbaycan zabitinin alçaldılaraq döyülməsinə Konstitusiya çərçivəsində düzgün qiymət verilməsə, Milli Məclisin qəbul edilən qanunların işləkliyinə heç kimi dəvət edə bilməyəcək:** "Kimin gücü varsa, digərinin fiziki cəzalandırmasına yaşıl işıq yandıran hərəkətlərə səbəb olacağıq. Ona görə də polisə və əsgərə qalxan əl dövlətə vurulan zərbə kimi qiymətləndirilməlidir. Gecədən keçmiş qanuni tabel silahına malik şəxsə qarşı linç əməliyyatı qurulursa, günün gündüz çağı millət vəkilini qanuna dəvət edən silahsız vətəndaş daha böyük işgəncəyə məruz qala bilər. Parlament üzvü dövlətin simasıdır, çünki millətin şərəf və ləyaqətini, maraq və mənafelərini təmsil edir. Ona qarşı gedəndə isə mandat hüququnu itirir. Sonda biz təklif edirik ki, qanunu və vətəndaş hüquqlarını müxtəlif bölgələrdə ləyaqətlə qoruyan polis təmsilçilərindən 125 nəfəri parlament tərəfindən mükafatlandırılsın".

> "Polisə və əsgərə qalxan əl dövlətə vurulan zərbə kimi qiymətləndirilməlidir"

**"Bu hadisə hüquqi qiymətini almalıdır"**

**Millət vəkili Hikmət Babaoğlu hüquq-mühafizə orqanlarının baş verən hadisəyə çevik reaksiya verdiyini söyləyib:** "Qanun hamı üçündür və məcburi davranış qaydasıdır. Qanunvericilik fəaliyyəti ilə məşğul olan şəxs, bizim sıralarımızdan olan biri qanunu pozub. Azərbaycan hüquqi dövlətdir. Biz hər birimiz dövlətə ödədiyimiz vergilərlə onun hüquq-mühafizə orqanlarının yaradılmasına vəkalət veririk ki, bizim hüquqlarımızı qorusunlar. Daxili İşlər Nazirliyinin əməkdaşlarına qarşı törədilən bu hadisə hüquqi qiymətini almalıdır. Zəruri hüquqi hərəkətləri görmək üçün deputatın toxunulmazlığının götürülməsi şərtdir. Üçüncü hakimiyyət qolu - məhkəmənin hansı qərar qəbul edəcəyi isə onun öz işidir". H.Babaoğlu deputatların 44 günlük Vətən müharibəsində informasiya cəbhəsində savaşdığını xatırladıb: "Cəmi bir neçə gün əvvəl Milli Məclisdə Bakı Bəyannaməsi imzalandı, bu, parlament diplomatiyasının bir nümunəsidir. Azərbaycan hüquq sisteminin çox işlək mexanizmi var. Mən hüquq sistemimizin bu addımını alqışlayıram. Zəruri hərəkətləri həyata keçirmək üçün Baş prokurorun təqdimatı əsaslıdır".

**"Eldəniz Səlimov bildirib ki, hadisəyə qədər şantaj və təzyiqlə üzləşib"**

**Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədr müavini Qüdrət Həsənquliyev qeyd edib ki, Baş prokurorun təqdimatı kifayət qədər əsaslıdır:** "Baş prokurorun bir məsələyə də aydınlıq gətirməsini istəyirəm. Eldəniz Səlimov bildirib ki, bu hadisəyə qədər şantaj və təzyiqlə üzləşib. Eldəniz Səlimov bu hadisəyə qədər üzləşdiyi halla bağlı hüquq-mühafizə orqanlarına müraciət edibmi? Mən təqdimata səs verəcəyimi də bildirirəm".

**"Biz və ailəmiz haqqında utanmaz ifadələr, təhqirlər işlədirlər"**

**Deputat Tahir Rzayev Eldəniz Səlimovun hərəkətinə görə seçicilərdən üzr istəyib:** "Deputatın hərəkəti Milli Məclisin imicinə böyük zərbədir. Bu gün sosial şəbəkələrdə bizim və Milli Məclis haqqında elə fikirlər işlədirlər ki Bizə 40 minə qədər insan etimad göstərib, seçib. Biz və ailəmiz haqqında utanmaz ifadələr, təhqirlər işlədirlər. Biz söyüş hədəfi ola bilmərik. Kiminsə bir xətaya yol verməsi bütün deputatların adına yazıla bilməz. Bizi heç kim təhqir etməməlidir. Baş prokuroru bu məsələlərə də diqqət yetirməyə çağırıram".

**"Fəxr et ki, səni Milli Məclisin deputatı döyür"**

**Deputat Fəzail Ağamalı həmkarı Eldəniz Səlimov haqqında yeni iddia səsləndirib.** O, Eldəniz Səlimovun polisi döyərkən qəribə ifadələr işlətdiyini deyib: "Eldəniz Səlimov polisi hüzuruna çağırıb, onu təhqir edib və döyüb. Döyəndən sonra bildirib ki, sən fəxr et ki, səni Milli Məclisin deputatı döyür. Deputat cinayət törədib, öz səlahiyyət həddini aşıb. İndi biz qəbul etdiyimiz qanunların əksinə getməliyik?! Hər bir şəxs qanun qarşısında bərabərdir. Bu, Milli Məclisin nüfuzuna xələl gətirə bilməz. İcra orqanlarının ayrı-ayrı nümayəndələri yol verdikləri cinayətlərə görə həbs olundu. İndi həmin icra orqanları xəcalət çəkməlidir? Milli Məclis sıralarını belələrindən təmizləməlidir. Polisə əl qaldırmaq olmaz! Polis sənə deyir ki, restoran gecə 12-dən sonra işləməməlidir, deməli, qapını bağlamalısan!".

**"Fövqəladə Hallar Nazirliyi əməkdaşlarına təşəkkür etməliyik"**

**Millət vəkili Sabir Rüstəmxanlı müzakirə olunan məsələ ilə yanaşı Türkiyədəki yanğınlara və Azərbaycanın dəstəyinə də münasibət bildirib.** Deputat deyib ki, Azərbaycanın yanğınla bağlı yardıma getməsi qardaş Türkiyə ilə davamlı bir yerdə olacağımızı sübut edir: "Bu gün Türkiyədə böyük ərazidə yanğın törədilib. Azərbaycan Fövqəladə Hallar Nazirliyi böyük həyətlə Türkiyənin yardımına gedib. Bu, qardaş Türkiyə ilə davamlı bir yerdə olacağımızı sübut edir. "Ona görə də Milli Məclis adından Türkiyədə yanğının söndürülməsinə gedən Fövqəladə Hallar Nazirliyi əməkdaşlarına təşəkkür etməliyik. Eyni zamanda Türkiyə parlamentinə müraciət etməliyik ki, Türkiyənin yanındayıq". Spiker Sahibə Qafarova isə Türkiyə parlamentinin sədri Mustafa Şentopla danışdığını, fikirləri ona çatdırdığını bildirib.

**İsmayıl Qocayev**

# "Media haqqında" qanun layihəsinin müzakirəsi aparılır



© Trend News Agency

**Bu gün Trend Beynəlxalq İnformasiya Agentliyində (BİA) "Media haqqında" Azərbaycan Respublikası Qanununun layihəsinin müzakirəsi keçirilib.**

Müzakirələrdə Trend BİA-nın rəhbər heyəti və əməkdaşları, Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və Agentliyin əməkdaşları iştirak ediblər.

Ə.İsmayılov "Media haqqında" Qanun layihəsinin müzakirəsinə yaratdığı şəraitə görə Trend BİA rəhbərliyinə minnətdarlığını bildirib.

O qeyd edib ki, "Media haqqında" qanun layihəsi "Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 2021-ci il tarixli Fərmanına əsasən hazırlanıb və media sahəsində aparılan islahatların tərkib hissəsidir.

Ə.İsmayılov vurğulayıb ki, media sahəsinə dair qanunvericilik müasir tələblərə cavab vermirdi və media sahəsində tənzimləmədə müəyyən boşluqlar var idi. Bu baxımdan, media sahəsinin tənzimlənməsi üçün yeni qanun layihəsinin hazırlanmasına ehtiyac var idi. O qeyd edib ki, qanun layihəsi audiovizual, çap və onlayn media subyektləri, informasiya agentliklərini əhatə edir. Layihə Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən media subyektlərinə, redaksiyalara, onların məhsullarına, o cümlədən ölkə hüdudlarından kənarda olan və fəaliyyəti Azərbaycan ərazisinə və auditoriyasına istiqamətlənmiş bütün media subyektlərinə, həmçinin xaricdə yaradılan media məhsullarının yalnız Azərbaycan ərazisində yayılan hissəsinə və jurnalistlərə şamil olunacaq.

Ə.İsmayılov qanun layihsində əksini tapan müddəalar və anlayışlar barəsində ətraflı izahat verib, qanun layihəsinin məqsədləri və mahiyyəti haqqında danışıb.

Onun sözlərinə görə, qanun layihəsinin media subyektlərində müzakirə edilməsinin məqsədi qanun layihəsinin təkmilləşdirilməsi, layihə ilə bağlı təklif və rəylərin öyrənilməsi və qanun layihəsinin son versiyasında bu təklif və rəylərin nəzərə alınmasıdır. Ə.İsmayılov bildirib ki, Agentlik qanun layihəsi ilə bağlı təkliflərə açıqdır və onun təkmil formada hazırlanması üçün media subyektlərini təkliflər irəli sürməyə çağırıb.

Ə.İsmayılov, həmçinin, müzakirələr zamanı verilən suallara aydınlıq gətirib və tədbir qarşılıqlı müzakirələr formasında davam etdirilib.

Sonda Ə.İsmayılov müzakirələrin səmərəli keçdiyini diqqətə çatdıraraq səsləndirilən fikirlərin ümumi işin xeyrinə olacağını bildirib.

## MEDİA-nın İcraçı direktoru Əl-Cəzirənin nümayəndəsi ilə görüşüb



**Medianın İnkişafı Agentliyində Azərbaycanda səfərdə olan Əl-Cəzirə Media Şəbəkəsinin İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin direktoru Sami Əl-Hacc ilə görüş keçirilib.**

Agentlikdən "Şərq"ə verilən məlumata görə, görüşdə Agentliyin İcraçı direktoru Əhməd İsmayılov qonağa qurumun fəaliyyət istiqamətləri, həyata keçirilən layihələr barədə ətraflı məlumat verib.

O, Medianın İnkişaf Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun birgə təşkilatçılığı ilə Əl-Cəzirə Media Şəbəkəsinin Azərbaycan Media nümayəndələri üçün "Jurnalistlərin münaqişə zonasında davranışları: Təhlükəsizlik və mühafizə qaydaları" mövzusunda keçirilən təlim proqramının əhəmiyyətini qeyd edib.

Əl-Cəzirə Media Şəbəkəsinin İctimai Azadlıqlar və İnsan Haqları Mərkəzinin direktoru Sami Əl - Hacc isə əlaqələrin inkişaf etdirilməsi üçün birgə layihələrin icrasına xüsusi önəm verdiyini bildirib.



## "Təxribatlar ara verməyəcək"

### Əziz Əlibəyli: "Azərbaycan "sərhədtanıtma əməliyyatı" keçirməlidir"

**Məşhur Amerika yazıçısı Mark Tvenin "Tom Soyerin macəraları" adlı maraqlı əsəri var. İndi isə Ermənistanda Nikol Paşinyanın macəraları yazılır. Amma başa düşmürlər ki, qələm öz əllərində deyil...**

Prezident Armen Sarkisyanın müvafiq fərmanı ilə Paşinyan baş nazir kimi təsdiqləndi. Beləliklə, indiyədək hakimiyyətinə olan təhlükə xeyli azaldı. Bu isə o deməkdir ki, Paşinyan daha konkret addımlar atmağa çalışacaq.

**Sosial Tədqiqatlar Mərkəzinin mətbuat xidmətinin rəhbəri, Beynəlxalq münasibətlər üzrə ekspert Əziz Əlibəyli proseslərin bundan sonrakı inkişafı barədə proqnozlarını "Şərq"lə bölüşüb:** "Düşmən ölkədə baş verənlərə məsuliyyət daşıyan tərəf yoxdur. Üçtərəfli razılaşmalara isə Paşinyan qol çəkib. Ermənistan yeni sərhəd xətlərini qəbul etmək istəmir. Paşinyan sərhədlərin müəyyənləşməsi prosesinə əngəl olur. Bu məqsədlə məsələyə kənar "oyunçular" cəlb edir. Atəşkəsin pozulması da eyni niyyətə hesablanıb. Təxribatlar ara verməyəcək. Və hər dəfə atəşkəs pozulduqca Azərbaycan "sərhədtanıtma əməliyyatı" keçirməlidir".

**Kənan**

# Rusiya üç əsas strukturda öz adamlarının olmasını istəyir

### "Paşinyan rusyönümlü qüvvələrin öz kabinetində olmasının tərəfdarı deyil"



Növbədənkənar seçkilərdə yüksək səslə qalib gələn və parlamentdə böyük üstünlüyə sahib olan Paşinyan yeni hökuməti formalaşdırmağa başlayıb. Ermənistan Konstitusiyasına görə, yeni seçilmiş parlament öz işinə başladıqdan sonra ölkə prezidenti parlament çoxluğu tərəfindən irəli sürülən namizədi dərhal baş nazir təyin etməliydi.

Kabinet isə baş nazir təyin edildiyi müddətdən sonra 15 gün ərzində formalaşmalıdır. Bundan sonra isə hökumət başçısı 20 gün ərzində Nazirlər Kabinetinin proqramını qanunverici orqana təqdim etməlidir. Siyasi şərhçilərə görə, Nikol Paşinyanın baş nazir postuna təsdiq olunmadan öncə Moskvaya səfər etməsi və prezident Vladimir Putinlə görüşməsi yeni kabinetdə rusyönümlülərin də olacağı ehtimalını artırır.

**İddialarla bağlı "Şərq"ə danışan "Atlas" Araşdırmalar Mərkəzinin eksperti Samir Hümbətov vurğulayıb ki, Paşinyan rusyönümlü qüvvələrin öz kabinetində olmasının tərəfdarı deyil.** Amma məcburən Rusiyanın istəklərini yerinə yetirməli olacaq. Analitikə görə, baş nazir ən azından öz hakimiyyətini möhkəmləndirənə kimi ruslarla xoş davranmaq məcburiyyətində qalacaq: "Ehtimallar var ki, Rusiya Paşinyandan üç əsas strukturda öz adamlarının təmsil olunmağını istəyəcək. Bunlar daxili işlər, müdafiə və milli təhlükəsizlik nazirlikləridir. Rusiya sözügedən qurumlarda özünə sadiq adamları yerləşdirməklə Ermənistandakı prosesləri idarə etməyə çalışacaq. Burada digər önəmli məsələ Ermənistan və Azərbaycan arasında mövcud olan Qarabağ problemidir. Bu mövzuda Paşinyanın Rusiyadan fərqli mövqe sərgilədiyi görünür. Fikrimcə, Paşinyan post-müharibə dövründə ölkəsinin blokadasını aradan qaldırmaq üçün bəzi addımlar atmağa çalışacaq. Lakin Rusiyanın buna nə dərəcədə icazə verəcəyi sual altındadır. 10 noyabr və 11 yanvar üçtərəfli bəyannamələrin icrasında yubanmaların aradan qaldırılması əsas məsələlərdəndir. Azərbaycandan fərqli olaraq Ermənistan üzərinə düşən öhdəlikləri yerinə yetirmək istəmir. Rusiya da bu məsələdə Ermənistana təzyiq etmək niyyətində görünmür".

S.Hümbətov vurğulayıb ki, Zəngəzur dəhlizinin açılmasının ləngiməsi, kommunikasiyaların açılmaması, erməni silahlı terrorçularının rus "sülhməramlıları"nın nəzarət etdiyi bölgədən çıxarılmaması Moskvanın proseslərə qərəzli yanaşdığının isbatıdır: "Həmçinin, erməni terrorçularının rus sülhməramlılarının yerləşdiyi ərazilərdən və Ermənistan-Azərbaycan dövlət sərhədinin müxtəlif istiqamətlərindən Azərbaycan silahlı qüvvələrini mütəmadi şəkildə atəşə tutması, mina xəritələrinin tam şəkildə Azərbaycana verilməməsi ciddi problemlərin hələ də mövcudluğundan xəbər verir. Son günlər Rusiya mediasında və siyasi elitasında Azərbaycana qarşı çirkin ifadələrin yer alması, Ermənistan-Azərbaycan sərhədində baş verənlərin fərqli yozulması rəsmi Bakıya qarşı çirkin niyyətlərin olduğunu göstərir. Nikol Paşinyanın Rusiyanın orbitindən çıxmaq üçün bütün gücü ilə çalışacağını düşünsək, regionda yeni dəyişikliyin qaçılmaz olacağını demək mümkündür".

**İsmayıl Qocayev**

# Bakı Minsk qrupuna güzəştə getməyəcək



## Yeni şərtlərə uyğun gündəlik tərtib olunmalıdır

Ermənistan hərbi-siyasi hakimiyyəti yenidən əl-ayağa düşüb. Rəsmi İrəvan müxtəlif bəhanələr, vasitələrlə ATƏT-in Minsk qrupunu canlandırmaq istəyir. Halbuki, biz bu qurumun vasitəçiliyindən imtina edib və öz işimizi özümüz görmüşük.

Çünki həmsədrlər otuz il ərzində nə dindilər, nə də danışdılar. Sadəcə gəldilər, gəzdilər, yeyib-içib, getdilər. Şübhəsiz ki, bu, İrəvana sərf edir. Bizim isə belə niyyətimiz yoxdur.

**BDU-nun Jurnalistika fakültəsinin professoru, siyasi elmlər doktoru Sabir Məmmədli Minsk qrupunun gələcək taleyi ilə bağlı "Şərq"in suallarını cavablandırıb:**

**- Ermənistan Minsk qrupunu "reanimasiyadan" çıxarmağı niyə bu qədər çox istəyir?**

- Əlbəttə, bu, İrəvanın maraqlarına və revanşist əhval-ruhiyyəyə uyğundur. Düşmən beləliklə, müharibənin bitmədiyini göstərmək və Qarabağ ermənilərinə "status" verməyə çalışır.

**- Qərbin məsələyə münasibəti nədir?**

- Fransa ilə ABŞ bunun mümkün olduğunu göstərməyə çalışır. Çünki həmin dövlətlər ancaq Minsk Qrupu vasitəsilə proseslərə müdaxilə edə bilərlər. Lakin Vaşinqton üçün ən yaxşısı Böyük Britaniyanın, Türkiyənin, İtaliyanın Qafqaz siyasətinə uyğun davranmaqdır. Bu, ABŞ-a daha böyük imkanlar verəcək. İkinci bir tərəfdən, Minsk qrupunun fəaliyyətinin dayanması ATƏT-in nüfuzuna zərbə olacaq. Ona görə də Qərb bu qurumu dirçəltməyə can atır.

**- Bəs Rusiya?**

- Şimal qonşumuzun ən zəif nöqtəsi sülhməramlıların "statusu"nun müəyyən edilməməsidir. ABŞ və Fransa başa düşür ki, Rusiya təzyiq yolu ilə proseslərə müdaxilə edib. Amma Moskvanı geri çəkə bilmirlər. Bunu yalnız Türkiyə bacarar. Sadəcə təəssüf ki, Qərb, o cümlədən ABŞ Türkiyəyə birbaşa dəstək verməkdən çəkinir.

**- Minsk qrupu hansı halda mövcudluğunu saxlaya bilər?**

- Daha real, yeni şərtlərə uyğun gündəlik tərtib olunmalıdır. Lakin hələ də Minsk qrupu inadkarlığından əl çəkmir, Qarabağ erməniləri üçün hansısa "status"dan danışır. Bu, işi çətinləşdirir. Dediyim kimi, yeni, tamam fərqli gündəlik olmadıqca Minsk qrupunun "reanimasiyası" mümkün deyil.

**- Niyə belə düşünürsünüz?**

- Çünki Azərbaycanın arxasında Türkiyə, Pakistan, bəzən üzdə görünməsələr də, Böyük Britaniya, İsrail, İtaliya kimi böyük güclər var. Onlar buna imkan verməzlər. Üstəgəl, Bakının Minsk qrupuna güzəştə gedəcəyinə inanmıram.

**Kənan Novruzov**



## Milli Məclis buraxılır?

### Cavid Osmanov: "Şayiələr məqsədli şəkildə yayılır"

**Son günlər müzakirə olunan əsas məsələlərdən biri parlamentin buraxılması ilə bağlıdır.**

Müxtəlif iddialara görə, bu yaxın vaxtlarda konstitusiyaya ediləcək dəyişikliklə bağlıdır. Konstitusiyaya dəyişiklik isə yalnız referendum yolu ilə mümkündür. Payızda növbəti referendumun keçiriləcəyi barədə yayılan söhbətlər isə rəsmi qaynaqlar tərəfindən təsdiqlənmir. **Millət vəkili Cavid Osmanov "Şərq"ə açıqlamasında bu məsələyə münasibət bildirib:** "Prezident İlham Əliyevin siyasətinin əsas istiqamətlərindən biri müxtəlif sahələr üzrə islahatların keçirilməsidir. Bu proses uğurla davam etdirilir. Azərbaycan regionda yeni geosiyasi reallıq yaradıb. Belə şayiələr isə məqsədli şəkildə yayılır və heç bir əsası yoxdur. Niyyət Azərbaycanın artan nüfuzuna, parlamentin imicinə xələl gətirmək, daxili ictimai-siyasi sabitliyi sarsıtmaqdır. Lakin bu, mümkün deyil. Vətəndaşlar prezidentin ətrafında sıx birləşiblər. Ölkədə xalq-iqtidar birliyi var".

**Kənan**



## Türkiyədəki yangınlarda PKK-a və erməni "izi"

### "Təəssüf ki, Avropa Birliyi qardaş ölkədə baş verənlərə səssiz qalmaqdadır"

**"Yanğınların təbii səbəbdən olduğuna inanmıram. Fikrimcə, siyasi motivlər var".**

**Bu sözləri Türkiyədəki yanğınlar barədə "Şərq"ə danışan politoloq Qabil Hüseynli dedi.**

**Onun sözlərinə görə, Türkiyəni istəməyənlər kifayət qədərdi:** "Avropa Birliyi, Fransa, Yunanıstan qardaş ölkənin əleyhinədirlər. Həmçinin, ABŞ, Rusiyanın müəyyən dairələri PKK-ya dəstək verirlər. Hətta ermənilərin də bu işdə "əli var".

Terrorçu qruplaşmalar ən azı on ildir ki, Türkiyədə oxşar yanğınlar törədirlər. Və bu işdə adətən uşaqlardan, o cümlədən "atəş cocuqlarından" istifadə olunur. Yanğınlar bir çox hallarda ailələrin piknik etdiyi yerlərdə çıxarılır. Dövlət isə təxribatçıları asanlıqla müəyyənləşdirməkdə çətinlik çəkir".

**Q.Hüseynli düşmənlərin lazımi cavabı alacaqlarını dedi:**

"Uzun müddətdir ki, təxribatlara hazırlıq gedirdi. PKK bəyanatında deyib: "Türkiyə bizi başa düşmədiyinə görə indi "yanğın dili" ilə danışacağıq". Terrorçular belə demək mümkünsə, "gəmidə oturub gəmiçi ilə dava edirlər. Onlar Türkiyəyə dərs vermək eşqinə düşüblər. Lakin hər biri aşkarlanacaq və lazımi cəzasını alacaq. Mən buna əminəm. Təəssüf ki, Avropa Birliyi qardaş ölkədə baş verənlərə səssiz qalmaqdadır".

**Kənan**

# Rəisinin İranda rəisliyi çətin olacaq

## "Xalqın əksər hissəsi bu rejimdən narazıdır, hətta ona düşmən mövqedədir"



**İranın yeni seçilən Prezidenti İbrahim Rəisi avqustun 3-dən vəzifə səlahiyyətlərinin icrasına başlayıb. O, 8-ci Prezident kimi Tehranda İmam Xomeyni məscidində and içib.**

Andiçmə mərasimində İranın ali rəhbəri ayətullah Seyid Əli Xamenei, prezidentlik müddəti başa çatan Həsən Ruhani, Ali Məhkəmənin sədri Möhsün Ejei, parlamentin sədri Baqer Qalibaf, Xarici işlər naziri Məhəmmədcavad Zərif və dövlətin başqa rəsmiləri də iştirak ediblər. Qeyd edək ki, iyunun 18-də İranda keçirilən 13-cü prezident seçkisində İbrahim Rəisi 28,6 milyon seçicidən 17,6 milyon nəfərinin səsini (61,95 faiz) qazanaraq qalib elan olunub. Bəs yeni prezidentin hakimiyyəti dövründə nələr yaşanacaq?

**BAXCP sədrinin müşaviri, politoloq Azər Qasımov "Şərq"ə açıqlamasında deyib ki, İbrahim Rəisinin hakimiyyət dövrü İran üçün ciddi sınaqlarla keçəcək:** "Ümumiyyətlə, İranda siyasi vəziyyətin zaman-zaman gərginləşməsi adi haldır. Səbəblər müxtəlif olsa da, hər zaman nəticə xalqın hakimiyyət əleyhinə, fars molla rejiminin birdəfəlik getməsi kimi şüarlar səsləndirməsinə səbəb olur. Deməli, xalqın əksər hissəsi bu rejimdən narazıdır, hətta ona düşmən mövqedədir. Düşünürəm ki, yeni prezident Rəisinin vəzifəsinə başlaması dövrü İran hakimiyyəti üçün ciddi sınaqların başlaması olacaq".

**Politoloq diqqətə çatdırıb ki, İran Əfqanıstanda mövcud olan proseslərə görə ciddi təhlükə altındadır:** "Əfqanıstandan qaçan qaçqınların əksəriyyəti İran üzərindən Türkiyəyə, ordan da Avropaya getməyə can atır. Türkiyə buna görə İranla sərhəddə beton divar çəkir. Bu divarın çəkilməsi onu göstərir ki, Türkiyənin suriyalı qaçqınlar kimi əfqanıstanlı qaçqınları da kütləvi şəkildə ölkəsinə buraxmaq fikri yoxdur. Bu səbəbdən də İranda qalan qaçqın kütləsi daxili gərginliyi artıra bilər. Əfqanıstanda, ümumiyyətlə, xalqın qazancı aylıq iyirmi dollar civarındadır, yeni işçi qüvvəsi çox ucuzdur. Bu, həmin qaçqınların seçilib Türkiyəyə ucuz işçi qüvvəsi kimi buraxılmasına səbəb ola bilər. Ancaq fikrimcə, onların əksər hissəsi İranda qalacaq. İran daxilində mövcud olan gərginliyi də nəzərə alsaq, hesab edirəm ki, yeni prezidentin idarəçiliyi dövrü heç də rahat keçməyəcək. Təbii ki, İran dini lideri də bundan xəbərdardır. Məhz buna görə də vəzifəyə qəddar biri hesab olunan Rəisi kimi məmurun gətirilməsini təmin edib. Görünən odur ki, onlar İranda vəziyyətin gərginləşəcəyini öncədən proqnoz ediblər və elə buna görə də belə bir addım atıblar".

**A.Qasımov qeyd edib ki, regionların xüsusiyyətindən asılı olaraq İran üçün geosiyasi vəziyyətə təsir imkanları formalaşacaq:** "İran Orta Asiya regionunda stabillik yaranmasında maraqlı olsa da, Cənubi Qafqazda eyni niyyətə sahib deyil. Səbəb isə odur ki, bölgədə vəziyyətin gərgin qalması İranın maraqlarına xidmət edir. Hesab etmək olar ki, İranın maraqları qeyd edilən regionlarda onun istəyinə uyğun getməyəcək. Bu da ölkədə daxili gərginliyin artmasına, həmçinin ölkədaxili dağıdıcı proseslər zəncirinin başlamasına təkan verə bilər".

**Aynurə Pənahqızı**

# Eldəniz Səlimova qarşı cinayət işi səhv seçilib?

## Erkin Qədirlinin iradına Baş prokuror cavab verdi





**Parlamentin dünənki iclasında çıxış edən deputat Erkin Qədirli həmkarı Eldəniz Səlimova Cinayət Məcəlləsinin 309-cu maddəsinin 2-ci bəndi əsas tutularaq cinayət işi açılmasına etiraz edib. Deputat bildirib ki, bu maddədə "vəzifəli şəxsin öz səlahiyyətini aşmasından" söhbət gedir.**

Ancaq Konstitusiya Məhkəməsinin qərarına görə, deputat "vəzifəli şəxs" sayılmır. E.Qədirli bildirib ki, deputat Eldəniz Səlimovun 315-ci maddəyə əsasən, təqsirləndirilməsi daha məqsədəuyğun olardı. Başqa millət vəkilləri də deputatın vəzifəli şəxs sayılmadığını bildiriblər. Onlar da hesab ediblər ki, Eldəniz Səlimov barəsində Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanması mübahisəlidir.

Baş prokuror Kamran Əliyev isə cavabında deyib ki, deputatlar da vəzifəli şəxs hesab olunurlar: "Ümumiyyətlə, hakimiyyət nümayəndələrinin vəzifəli şəxs olması heç vaxt mübahisə doğurmayıb. Əlbəttə, deputatın qanun pozuntuları ilə bağlı mübarizə aparmaq səlahiyyəti var, amma burada qanunun pozulması işində iştirak edib. Digər tərəfdən, polis baş verən hadisə zamanı iş başında olmayıb, onu hadisə yerinə çağırtdırıblar. Deputatın tələbi qanunsuz olub və vəzifə səlahiyyətlərini aşıb. Ona görə də Eldəniz Səlimova 315-ci maddə ilə deyil, 309-cu maddə ilə iş açılıb. Polis də vətəndaşdır və onun hüquqları pozulub. İkincisi isə polisin timsalında dövlətin nüfuzuna zərbə vurulub. Mən sübutları burada təhlil etmək istəmirəm. Başqa hal olsaydı, buna inzibati xəta kimi də baxıla bilərdi. Amma tamam başqa məsələdir".

**Milli Məclis sədrinin Birinci müavini Əli Hüseynli də deputatın vəzifəli şəxs olub-olmaması barədə məsələyə aydınlıq gətirib:** "Deputat vəzifəli şəxsdir və bir çox qanunun subyektidir. Ona görə də Baş Prokurorluğun vəzifə həddini aşma ilə bağlı cinayət işi açması mübahisə yaratmamalıdır".

**İsmayıl**

## Azərbaycanlı deputat ana müxalifət partiyasından ayrıldı

### Azər Süleymanov istefa səbəbinə üstüörtülü toxunub



**Gürcüstanın azərbaycanlı deputatı Azər Süleymanov ölkənin ana müxalifəti hesab olunan "Vahid Milli Hərəkat" Partiyasından çıxıb.**

**Bu barədə deputat özü sosial şəbəkə hesabından məlumat paylaşıb. Azər Süleymanov siyasi fəaliyyətini dayandırdığını açıqlayıb:** "Əziz həmvətənlilərim! İllərdir, hər çətin vəziyyətdə mənimlə birgə oldunuz, heç bir vaxt dəstəyinizi əsirgəmədiniz. Hər zaman qürur və iftixar mənbəyim oldunuz. Bunun üçün hər birinizə dərin minnətdarlığımı bildirirəm! Ola bilsin bu illər ərzində sizlərə qarşı hansısa səhv bir addımım olub, buna görə sizlərdən üzr istəyirəm. Mənim üçün asan olmasa da, çox çətin qərar verməli oluram. İllərdir siyasi yolda birlikdə olduğum Vahid Milli Hərəkat Partiyasını tərk edirəm. Bundan sonra siyasi fəaliyyətimi müvəqqəti olaraq dayandırıram".

**A.Süleymanov partiyadan ayrılma səbəblərinə üstüörtülü toxunub:** "Bu qərarın səbəbi partiyada olan bəzi insanların bizim xidmətlərimizi və siz seçicilərin fikirlərini layiqli şəkildə dəyərləndirməmək oldu. Son bir ildə baş verən hadisələr bunun bariz nümunəsidir. Partiyada olan çoxlu sayda dostlarıma olan hörmətim naminə bəzi detalları açıqlamaq istəmirəm. Düşündüm ki, bütün bunların fonunda VMH partiyasında öz fəaliyyətimi davam etdirməyim sizlərə qarşı haqsızlıq olardı. Hər birinizə təşəkkür edirəm".

**İsmayıl**

## "Jirinovskinin dilindəkilər Kemlin beynindəkilərdir"

### Fuad Abbasov: "Moskva imperialist siyasətini davam etdirir"



**Rusiya Dövlət Dumasının sədr müavini, Liberal-Demokrat Partiyasının sədri Vladimir Jirinovskinin bu günlərdə Azərbaycanla bağlı səsləndirdiyi bəyanatlar ciddi reaksiyalara səbəb olub.**

Özünün siyasətçiyə yaraşmayan hərəkətləri ilə dəfələrlə gündəm olan Jirinovski, yenə nə yuxu görübsə, danışmağa başlayıb.

**Jurnalist, siyasi-şərhçi Fuad Abbasov "Şərq"ə açıqlamasında Jirinovskinin "yuxusunu" belə "yozdu":**

"Jirinovskinin dilindəkilər Kemlin beynindəkilərdir. Bu, bütün müasir tarix boyu belə olub. Sözügedən siyasətçi təxribat xarakterli açıqlaması ilə bağlı razılığı, şübhəsiz ki, hakimiyyətdən alıb.

Müharibə dövründə Sergey Mironovun partiyasından bir nümayəndə Qarabağın Rusiyaya birləşdirilməsi barədə bəyanat vermişdi. Halbuki, Mironovun Azərbaycana münasibəti kifayət qədər yaxşıdır. Yəni həmin epizod da Rusiyanın Azərbaycanla bağlı siyasətinin tərkib hissəsi idi".

**F.Abbasovun sözlərinə görə, Moskva "mənəm, mənəmlikdən" əl çəkmək istəmir:** "Jirinovskinin açıqlamasını Rusiyanın Azərbaycana və Türkiyəyə xəbərdarlığı kimi qiymətləndirirəm. Demək istəyir ki, "qırmızı xətti" keçməyin. Kreml imperialist siyasətini davam etdirir. Məqsədi Cənubi Qafqazda qalmaqdır. Eynilə Əfqanıstan-Tacikistan sərhəddində olduğu kimi, Azərbaycan-Ermənistan sərhəddini də ruslar qorusa, təəccüblənmərəm. Proseslər ona doğru gedir".

**Kənan**

# "Bakı İrəvanın "arzusunu" ürəyində qoyacaq"

## Təbrizli jurnalist Taha Kermani: "Savaş təkcə cəbhədə getmir"



**Qarabağ ətrafında baş verən proseslər forma və məzmun baxımından dəyişilsə də, gündəmdən düşmür. Çünki yeni "düyün"lər yaranmaqdadır. "Suyu bulandıranlar" var. Amma qardaş Türkiyə bütün müstəvilərdə yenə də yanımızdadır.**

Baş verən son proseslərin perspektivləri ilə bağlı fikirlər müxtəlifdir. "Şərq" olaraq bu dəfə son olaylar və onların informasiya cəbhəsindəki inikası barədə Türkiyədə yaşayan təbrizli jurnalist Taha Kermani ilə söhbətləşdik:

**- Sizcə, Ermənistanın son vaxtlar təkrarlanan təxribatları nə ilə bağlıdır?**

- Düşmən uduzsa da, bunu qəbul etmək istəmir. İrəvan məsələnin bitməsində maraqlı deyil. Odur ki, atəşkəsi pozur. Və bununla həm də üçtərəfli anlaşmalardan narazı qalan güclərin diqqətini çəkməyə çalışır.

**- Elə isə bu proseslər nə ilə nəticələnəcək?**

- Əlbəttə, Qarabağ məsələsi təkcə Azərbaycanla Ermənistan arasında olan problem deyil. Əks halda otuz il davam etməzdi. Biz çox ciddi iş bacarmışıq. İndi Bakının prioriteti azad etdiyi yerlərdə sürətli bərpa işləridir. Çünki xalq gözlənti içindədir. Yekun sülh müqaviləsinin yaxın vaxtda imzalanmasını gözləmirəm. Nəzərə almaq lazımdır ki, İrəvan hələ də "Böyük Ermənistan" xülyasından ayılmayıb.

**- Deməli, növbəti müharibə ola bilər?**

- Bunu dəqiq demək çətindir. Ermənistan təxribatlarına ara vermir. Əlbəttə, Azərbaycan provokasiyalara cavab verir, verəcək. Biz müharibə tərəfdarı deyilik. Lakin Bakı İrəvanın regionda qeyri sabitliyi uzun müddət davam etdirmək arzusunu ürəyində qoyacaq. Bunu diplomatik və hərbi gücü ilə edəcək.

**- İkinci Qarabağ savaşından indiyədək çəkən informasiya savaşı barədə nə deyə bilərsiniz?**

- Müasir mübarizələri informasiya müharibəsiz təsəvvür etmək mümkün deyil. Nəzərə almaq lazımdır ki, savaş təkcə cəbhədə getmir. 44 günlük hərbi əməliyyatlar dövründə bütün təxribatlara, dezinformasiyalara rəğmən, Azərbaycan öz haqlı mövqeyini dünya ictimaiyyətinə çatdırmağı bacarıb. Həmin müddətdə həmişə olduğu kimi, yenə də Türkiyə və Azərbaycan birgə mübarizə aparıblar. Türkiyə mediası da əlindən gələni edərək haqqın yanında qərarlaşıb.

**- Belə vaxtlarda sosial medianın məhdudlaşdırılmasına münasibətiniz necədir?**

- Bu, hakimiyyətlərdən asılı məsələdir. Və adətən analoji vəziyyətlərdə xalqla hakimiyyətin mövqeyi üst-üstə düşmür. Mən isə bir jurnalist kimi söz və ifadə azadlığının təmin edilməsinin tərəfdarıyam. Yəni məhdudlaşdırılmaların əleyhinəyəm.

**- Bu o deməkdir ki, bütün informasiyalar olduğu kimi təqdim edilməlidir?**

- Təqdim edilən məlumat istənilən halda "süzgəcdən" keçirilməlidir. Bu, adi etik kodeksdir. Doğrudur, vətənpərvərlik bəzən xəbərlərin yayımını məhdudlaşdıra bilər. Əsas məsələ hakimiyyətin informasiya siyasətindən asılıdır. Proses elə tənzimlənməlidir ki, ictimaiyyətdə narazılıq yaranmasın. İnsanlar bunu informasiyanın məhdudlaşdırılması kimi yox, medianın daha diqqətli davranması kimi başa düşməlidirlər. Ən azından ona görə ki, hər bir vətəndaşın informasiya almaq hüququ var.

**Kənan Novruzov**

# "Dərmanlar qəbul edirəm..."

## Vaqif Bayatlı Odər: "Allahın köməkliyi ilə yaxşı olar"



## "İmkan düşdükcə dostlar baş çəkirlər, görüşürük"

**Bir adam var, onunla həmsöhbət olan hər kəsə müsbət enerji bəxş edir. Bəzən çox təəccüblənirəm. Deyirəm, səhətindəki problemlərlə mübarizə aparan adam, necə belə həyat dolu ola bilir? Səsindən mülayimlik, xoşbəxtlik heç əskik olmur. Şeirlərindəki saflıq, ülvilik simasında məskən salıb. Ya da, tam əksinə, qəlbinin təmizliyini sətirlərə köçürüb.**

Vaqif Bayatlı Odərdən danışıram. Uzun müddətdir ki, beyin anomaliyası və ürək xəstəliyindən əziyyət çəkir. Zaman-zaman onunla əlaqə saxlayıb həm maraqlanır, həm də sevənlərinə salamını çatdırırıq.

Düzdür, az danışır. Lakin bizə o da bəsdir.

*"Şərq" sevilən şairlə həmsöhbət olub. O, həm sağlıq durumundan, həm də yaradıcılığından danışıb.*

**- Necəsiniz?**

- Müalicəm davam edir. Dərmanlar qəbul edirəm. Allahın köməkliyi ilə yaxşı olar.

**- Günləriniz necə keçir?**

- Çox mütaliə edirəm. Televiziya izləyirəm, radio dinləyirəm. Axşamlar da küçəyə çıxmağa çalışıram.

**- Yeni şeirlər yazırsınızmı?**

- Bir neçə şeirim var. Adətən şeirləri birdən qələmə alıram. Kitab da qəfildən ərsəyə gəlir. Havası gələn kimi küləyini də gətirəcək.

**- Qələm dostlarınız sizi yada salırmı?**

- İmkan düşdükcə baş çəkirlər, görüşürük.

Növbəti sualı ünvanlamaq üçün dillənirəm. Lakin Vaqif bəy həmişəki mehribanlığı ilə söhbəti tamamlamaq istəyir.

**- Hamınızı öpürəm. Çox sağ olun. Dünyanın ən xoşbəxt günlərini, ən gözəl sevgilərini arzulayıram.**

Biz də sevimli şairimizə uzun ömür, cansağlığı arzu edirik.

**Samirə**

## Sosial şəbəkələrdə ziyalıların "ziya boyası" çirklənir

### Qulu Məhərrəmli: "Bəzən insanlar klaviatura arxasında reallıq hissini unudurlar"



**Sosial şəbəkələrdə, o cümlədən "Facebook"da son vaxtlar neqativ hallarla üzləşməkdəyik. Ziyalı kimi tanıdığımız şəxslər, o cümlədən jurnalistlər, yazıçılar, vəkillər bir-birlərinə qarşı təhqiramiz ifadələr işlədir, söyüş söyməkdən nə çəkinir, nə də utanırlar.**

Beləliklə, bir də baxırıq ki, "ana səhifə çirklidir", "ləkəlidir". Bu, bəlkə də, həmin "ziyalıların" üzlərinə çəkdiyi "ziya" boyasının axması ilə əlaqəlidir...

**BDU-nun Jurnalistika fakültəsinin professoru Qulu Məhərrəmli sözügedən məsələyə dair fikirlərini "Şərq"lə bölüşüb:** "Bunu insanların psixologiyası və cəmiyyətdə dialoq mühitinin olmaması ilə izah etmək olar. Sosial şəbəkələr cəmiyyətin uzantısıdır. Deməli, cəmiyyətdəki gərginlik həmin platformalarda da öz əksini tapır. İnsanlar bir-birlərinə güzəştə getmək, bir-birlərini başa düşmək istəmirlər. İkinci bir tərəfdən, sosial şəbəkələrdə dialoq, bərabərlik imkanının olması ilə yanaşı, həm də burada naqisliklər üzə çıxır. Bəzən insanlar klaviatura arxasında reallıq hissini unudurlar. Nəticədə belə acınacaqlı mənzərə yaranır".

**Kənan**

# Təhsil Nazirliyi müəllimlərin hədəfində



## "Aqressiya bugünədək bu formada olmamışdı"

Artıq bir neçə müddətdir ki, Bakıda müəllimlərin işə qəbulu üzrə keçirilən imtahanla bağlı narazılıqlar səngimir. Baxmayaraq ki, ötən gün Təhsil Nazirliyi tərəfindən yenidən imtahanların keçirilməsi barədə qərar qəbul edilib. Bəziləri hesab edir ki, bu imtahanlarla bağlı artıq köklü dəyişikliklərin edilməsinin vaxtıdır.

Qeyd edək ki, son imtahanlarda müəllimlərin əksəriyyəti nöqsanların olduğunu - kompüterlərin zəif işlədiyini, məntiq suallarının yanlış olduğunu, sualların proqrama uyğun olmadığını və imtahan gedə-gedə sualların dəyişilməsindən şikayət ediblər. Bununla belə, narazılıq yalnız son imtahanlarla bağlı deyil. Demək olar ki, əksər fənlərin imtahanı ilə bağlı suallardan namizədlər şikayətçidir. Belə narazılıqlar arasında Azərbaycan dili və ədəbiyyat müəllimləri də olub. Onların narazılıqları nəzərə alınaraq Təhsil Nazirliyi tərəfindən avqustun 3-də təkrar imtahan keçirilib. İmtahanda 3055 namizəd iştirak edib.

**Təhsil eksperti Elşən Ramizoğlu "Şərq"ə açıqlamasında məsələ ilə bağlı bir sıra mətləblərə aydınlıq gətirib. O vurğulayıb ki, müəllimlərin işə qəbulu başlayandan suallarla bağlı haqlı narazılıq var:** "Azərbaycan dili və ədəbiyyat fənninin imtahanı zamanı isə namizədlər artıq pik həddə çatdı. Hətta bu narazılıq kəskin xarakter aldı. Narazılıqların bu miqyası MİQ tarixində ilk dəfə idi. Namizədlər sualların çətinlik səviyyəsi, proqrama uyğun olmamasından, vaxta uyğun sualların verilməməsindən şikayətlənirdilər. Namizədlər qeyd edir ki, əsərdən sual verilir və əsərin məzmunu, oxucuya çatdırılan məqamlar qıraqda qalıb əsərin qəhrəmanının koftasının rəngi soruşulur. Narazılıqdan sonra cənab nazir məsələni nəzarətə götürdü. Və Azərbaycan dili fənnindən imthanların yenidən keçirilməsi qərara alındı. Yəni həqiqətən də bu məsələdə yüzlərlə namizədin haqqı tapdalanıb və suallar da çox biabırçı şəkildə olub. Təsəvvür edin, sualların təhlili ilə bağlı canlı yayım gedir. Müəllim əvvəlcədən sual ilə tanışdır, həllini bilir. Bununla belə bir sualın həlli üçün onun 7-8 dəqiqəsi gedir. Bir məsələni də qeyd edim. Təhsil İşçilərinin Peşəkar İnkişaf Mərkəzinin direktoru Nəzakət Mehdiyeva qeyd edir ki, suallar düşündürücüdür. O zaman sual yaranır. Düşünmək üçün nə lazımdır? Əlbəttə ki, zaman. Burada insanlara zaman verilmir, sadəcə onlar düşünməyə vadar edilir. Qeyd edim ki, Təhsil Nazirliyinə qarşı bu cür aqressiya bugünədək bu formada olmamışdı. Ümid edirəm ki, bu məsələ tezliklə öz həllini tapacaq".

**Aynurə Pənahqızı**

**"Ermənistan prezidenti parlament seçkisində qələbə qazanan Nikol Paşinyanı rəsmən baş nazir təsdiq etdi. Paşinyan da vaxt itirmədən nazirlərini və parlamentin rəhbər strukturlarını təyin etməyə başladı".**



Elxan Şahinoğlu: "Qarşılıqlı ittihamlar, söyüşlər hələ irəlidədir"

# Paşinyan yenə başa keçdi...

*Bunu "Atlas" Araşdırmalar Mərkəzinin sədri, politoloq Elxan Şahinoğlu "Şərq"ə açıqlamasında deyib. Ekspert hesab edir ki, yenidən hakimiyyətin başına keçən Paşinyana bu dəfə əvvəlki illərdən çətin olacaq:* "Çünki keçən parlamentdə müxalifətin əsas hissəsi ilə dialoq mümkün idi. Paşinyan onları tez-tez iqamətgahına dəvət edir, fikir mübadiləsi aparırdı. "Qarabağ klanı"nın timsalında indiki müxalifət isə Paşinyana qarşı barışmaz mövqedən çıxış edir, ilk gündən parlamentin işini iflic etməyə çalışıblar. Sözəbaxan müxalifət parlamentdən kənarda qaldı. Qarşılıqlı ittihamlar, söyüşlər hələ irəlidədir. Nikol Paşinyan xarici siyasət və təhlükəsizlik məsələlərində naşıdır. Məhz Paşinyanın Qarabağla bağlı təxribatçı açıqlamaları müharibəni yaxınlaşdırdı və Azərbaycanın qələbəsini təmin etdi. Paşinyan bu müddətdə Moskvanın əsəbləri ilə oynadı, Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının erməni baş katibini həbs etməklə qurumun imicinə zərbə vurdu".

**E.Şahinoğlu qeyd edib ki, Paşinyan daxili siyasətə daha çox maraq göstərir:** "Paşinyanın nəyi də olmasa, onun adı eksprezidentlər Robert Koçaryan və Serj Sarkisyandan fərqli olaraq korrupsiya qalmaqallarında hallanmayıb. Paşinyan islahatlar aparmağa meyillidir. Amma orası da var ki, müharibədə ağır məğlubiyyətin və Ermənistanın verdiyi itkilərin yerini doldurmaq ona çətin olacaq. Ölkəni tərk edənlərin - itirilən işçi qüvvəsinin sayı da artır. Rusiya Paşinyana havayı pul verəsi deyil, Qərbin pulları isə ancaq hələ ki, vədlərdədir. Nikol Paşinyan Ermənistanın iki böyük qonşusu - Türkiyə və Azərbaycanla normal münasibətlərə malik olması reallığını anlayır. Müharibədən sonra bu mövzuda onun müəyyən etirafları da oldu. Fərqli dövlətlərə "gəlin, bizi Azərbaycandan qoruyun" çağırışlarının nəticə vermədiyini həm Paşinyanın özü, həm də erməni cəmiyyəti əyani gördü. Paşinyan Azərbaycanla sülh sazişi imzalamadan və qonşusuyla sərhədləri müəyyənləşdirmədən bölgədəki gərginliyin azalmayacağını da anlamamış deyil. Amma bunları anlamasına rəğmən, o, erməni beyinlərinə hakim olan "türk düşmənçiliyi" stereotipindən qurtulmağa tələsmir. Bundan qurtulmadan isə bölgədəki gərginliyi azaltmaq və islahatlarda nəyəsə nail olmaq mümkün deyil".

**Aynurə Pənahqızı**

# Əfqanıstan hökuməti “Taliban"a barışıq əli uzadır



## Turab Rzayev: “Hökumət “Taliban”ın çox sürətlə yerdə qalan əraziləri işğal etməyindən və onların qisas əməliyyatlarından çəkinir”

Əfqanıstanın Xarici işlər naziri Məhəmməd Hənif Atmar "İzvestiya" nəşrinə müsahibəsində deyib ki, Əfqanıstan hökuməti müəyyən şərtlər əsasında "Taliban" hərəkatı ilə sülhə hazırdır. Onun sözlərinə görə, "Taliban" qruplaşması terrora dəstək verməyi dayandırmalıdır. Nazir qeyd edib ki, onlar "Taliban"la işləməyə, onların hökumətdə təmsil olunmalarına, onlarla barışmağa və hakimiyyəti bölməyə hazırdılar:

”Bunun üçün çox şərtimiz yoxdur, əslində yalnız bir şey var - ölkə daxilində Əfqanıstanın gələcəyi əfqan xalqının azad iradəsi ilə həll edilməli, xarici sərhədlərdə Əfqanıstan başqa heç bir ölkəyə təhlükə yaratmamalı, ölkədə bir dənə olsun belə xarici terrorçu olmamalıdır”. Nazir əlavə edib ki, Əfqanıstan bütün ölkələrlə əməkdaşlığa hazırdır: ”Əfqanıstanın qarşıdurma və rəqabət məkanı deyil, əməkdaşlıq məkanına çevrilməsini istərdik. Əfqanıstan bütün ölkələrə tərəfdaşlıq təklif edir”.

**Məsələ ilə bağlı siyasi analitik Turab Rzayev ”Şərq”ə şərhində bildirib ki, əslində mərkəzi hökumət ”Taliban”la sülhə hazır deyil. Sadəcə olaraq, onunla anlaşmağa məcburdur:** ”Hazırda görünən odur ki, hökumət məğlub olur və mövqeyini itirir. Həmçinin, getdikcə tərəfdarlarının sayı da azalmaqdadır. Məhz bu səbəbə görə, hökumət ”Taliban”a sülh təklif edir. Qeyd edim ki, ”Taliban” hazırda çox güclüdür və hökumət ona müqavimət göstərə bilmir. Bu günlər ”Taliban” ölkənin əksər hissələrini ələ keçirib və keçirməkdə də davam edir. Ölkənin xarici sərhədlərini belə ”Taliban” artıq öz nəzarəti altına alıb. Hesab edirəm ki, ”Taliban” əslində bu sülhə razılaşmayacaq. Çünki onun şərti açıq aydındır. İndiki hökumət istefa verməli və yeni hökumət seçilməlidir. ”Taliban” bəlkə də o hökumətlə koalisiyaya razı ola bilər və birgə təmsil olunar. İndiki hakimiyyətlə isə ”Taliban”ın barışmaq üçün heç bir motivi yoxdur. Açıq şəkildə özləri də bunu etiraf edirlər ki, onlar indiki hökumətlə heç bir şəkildə barışmayacaqlar. Ona görə də hökumət qeyd-şərtsiz istefa verməlidir”.

*T.Rzayev əlavə edib ki, ”Taliban” getdikcə gücünü artırır, mərkəzi hökumət isə məğlub olur:* ”Təbii ki, belə bir halda ”Taliban” hökumətlə niyə barışsın? Yəni onun burda barışmaq üçün heç bir marağı yoxdur. Bəs hökumət nədən çəkinir? Hökumət ”Taliban”ın çox sürətlə yerdə qalan əraziləri işğal etməyindən və onların qisas əməliyyatlarından çəkinir. Hazırda hökumətin əlində müəyyən vilayətlər, şəhərlər və paytaxt var. Ona görə də çalışır ki, bu şəkildə ən azından müəyyən sülh əldə olunsun və hadisələri dondursun. Əgər mərkəzi hökumət bunları da itirsə, artıq o zaman ”Taliban”la hər hansı saziş bağlaya bilməyəcək. Həmçinin, hansısa şəkildə müqavimət göstərməyə də imkanı olmayacaq. Hökumət mümkün olan ən ideal variantda özünü sülhə saxlamaq istəyir və əsas plan da budur”.

**Aynurə Pənahqızı**



# Deputat özünü bitirdi

## Eldəniz Səlimov barəsində həbs-qətimkan tədbiri seçilib

**Dünən Milli Məclisin qərarı ilə deputat toxunulmazlığı ləğv olunan Eldəniz Səlimov barəsində məhkəmə prosesi keçirilib.**

Binəqədi Rayon Məhkəməsinə gətirilən Eldəniz Səlimov barəsində həbs-qətimkan tədbirinin seçilməsi ilə bağlı istintaq orqanının təqdimatına baxılıb.

Prosesdə qərar qəbul edilib.

Qərara əsasən, E.Səlimov barəsində 3 ay həbs-qətimkan tədbiri seçilib.

Xatırladaq ki, iyul ayının 29-da saat 01 radələrində Xaçmaz şəhərində yerləşən ”Starıy Dvor” restoranında deputat Eldəniz Səlimovun polis əməkdaşına xidməti vəzifələrinin icrası ilə əlaqədar zor tətbiq etməsi barədə Daxili İşlər Nazirliyindən daxil olmuş material Baş Prokurorluqda araşdırılıb.

Toplanmış material üzrə Cinayət Məcəlləsinin 309.2-ci (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlanıb və istintaqın aparılması Baş Prokurorluğun İstintaq İdarəsinə tapşırılıb. Hazırda iş üzrə intensiv istintaq hərəkətləri aparılır.

# Bakıda 32 naməlum məzar açıldı

## Şəhidlər Xiyabanındakı naməlum şəhidlərin kimliyi müəyyənləşdirilir




**Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası naməlum şəhid məzarları ilə bağlı eksqumasiya və tibbi-genetik ekspertizasının aparılması üçün Azərbaycan Respublikasının Baş Prokurorluğuna müraciət edib.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, bununla əlaqədar, Respublika Hərbi Prokurorluğunun təqdimatı əsasında Bakı şəhəri Birinci Şəhidlər Xiyabanında tanınmadan dəfn edilmiş 23, Bakı şəhəri İkinci Şəhidlər Xiyabanında isə 9 şəhid məzarından meyitin qəbirdən çıxarılmasına (eksqumasiya) dair 03 iyun 2021-ci il tarixdə Bakı hərbi məhkəməsi tərəfindən qərarlar qəbul edilib.

Prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibbi kriminalistik ekspertin iştirakı ilə eksqumasiyanın keçirilməklə tibbi-genetik tədqiqat üçün müvafiq nümunələrin götürülməsi təmin edilib.

Hazırda Respublika Hərbi Prokurorluğu və aidiyyati ərazi prokurorluqlarının iştirakı ilə zəruri tədbirlər həyata keçirilir.

İctimaiyyətə ətraflı məlumat veriləcək.

# Yoluxma sayı minə yaxınlaşır

## Koronavirusdan 225 nəfər sağalıb, 4 nəfər vəfat edib

**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 931 yeni yoluxma faktı qeydə alınıb, 225 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan ”Şərq”ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 4 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 345 882 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 333 492 nəfər müalicə olunaraq sağalıb, 5034 nəfər vəfat edib, aktiv xəstə sayı 7356 nəfərdir.

Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 10 257, ötən müddət ərzində isə ümumilikdə 4 060 235 test aparılıb.

Milli Məclisin dünənki iclasında deputat Tahir Kərimli Baş prokurorun təqdimatı ilə toxunulmazlığı götürülən həmkarı Eldəniz Səlimovun müdafiəsinə qalxıb. Nəticədə Tahir Kərimli ilə spiker Sahibə Qafarova arasında mübahisə yaranıb. Millət vəkili Tahir Kərimli həmkarlarından fərqli çıxış edib və bildirib ki, hər kəsin içində kədər var: "Bu, onunla bağlı deyil ki, öz həmkarımızın qələmini qırırıq. Məsələ hər bir deputatın nüfuzu üçün zərbədir. Biz xalqımızın gözündə kiçildik. İntizam Komissiyasının qərarını alqışlayıram. Çünki o iclasda ancaq xəsarət yetirmədən danışılıb.



# Tahir Kərimli yenə də fərqləndi

## “Rayonlara gedəndə polis bizə hərbi salam verir, indi biz onlara salam verək?!”

Yaxşı, xəsarət varsa, niyə polis gedib öz rəhbərinə məlumat verməyib? Deməli, polisin yiyəsi var, ancaq deputatın yiyəsi yoxdur. Biz neyləyək? Rayonlara gedəndə polis bizə hərbi salam verir, indi biz onlara salam verək?! Ya da polis var deyə 10 metr aralıdan keçək. Hər gün bizə polis orqanlarından çoxsaylı şikayətlər gəlir. Axı biz hamısını ictimailəşdirmirik, şişirtmirik. Əgər söhbət xəsarət yetirməkdən gedirsə, tərəfləri barışdırmaq olmazdımı? Niyə məsələ bu yerə gəlib çıxmalıydı. Eldəniz Səlimov mənə heç nə edə bilməz. Amma digər rəsmi qurumlar mənim və ya ailəm haqqımda istədiklərini tapa bilərlər. Mən məcburam, burada bu sözləri deməyə. Hərəmizi bir adla götürüb deputat səlahiyyətindən məhrum edək. Sonra nə olacaq bəs? Onda camaat düz deyir də. Elə buraxaq parlamenti, yenidən seçkilər keçirilsin”.

**Milli Məclisin sədri Sahibə Qafarova isə deputata sərt reaksiya verib. Sədr T.Kərimlinini məsələyə bu cür yanaşmasına etirazını bildirib:** ”Fikirlərinizlə qəti razı deyiləm. Bu nə yanaşmadır? Deputatın yiyəsi xalqdır. Şəxsən sizi iclasdan sonra kabinetimə dəvət edəcəm və 10 dəqiqəlik səs yazısına qulaq asdıracam. Amma özüm kabinetdən çıxacam. Səsə qulaq asandan sonra qərar verərsiz ki, Eldəniz Səlimovu bağışlamaq olar, yoxsa yox. Sizin çıxışınız məni çox məyus etdi”.

**İsmayıl**

# Maaşdan əlinizi üzün!

## Tarixdə bir ilk yaşayırıq



### Toy dəvətnamələri o qədər çoxdur ki, insan depressiyaya düşür

**"Bəyin oğurlanması" filmində belə bir ifadə işlədilir: "Xəlqimin toy kimi bir adəti var". 2 ilə yaxındır ki, koronavirus pandemiyasına görə, ölkəmizdə toylar keçirilmirdi. İyunun 22-dən etibarən bəzi şərtlər daxilində toy, şənlik mərasimlərinin keçirilməsinə icazə verilir. Elə bu icazənin başlamasıyla evlərdən toy dəvətnamələri əskik olmur.**

Bu barədə sosial şəbəkələrdə media cameəsinin də paylaşımını görmək olar:

**"Real" TV-nin əməkdaşı Elvin Paşazadə:**

"Bu gün 11-ci toy dəvətnaməsini aldım. Müğənnilərə şəxsən meydan oxuyuram".

**Arb TV-nin əməkdaşı Vəfa Təyyarqızı:**

"Sayca 14-cü toy dəvətnaməsi alıram, məncə, tarixdə bir ilk yaşayırıq. Maaşdan da əlimizi üzmüşük".

*Doğrudan da, nə vaxt çatır, nə də cibə uyğun olur. Hətta pandemiyada ailə qurанlar da indi toy mərasimi düzənləyirlər. Xalqımın belə dəbdəbəli "toy sevdası" niyə bitmir?*

Məsələ ilə bağlı sosioloq Rəşad Əsgərov "Şərq"ə danışıb. O bildirib ki, insanlar uzun müddətdir, toya gedib, pul yazdırıb. Bir neçə ildir, toyların keçirilməsinə icazə verilmədiyinə görə, fürsətdən istifadə edirlər: "Həm restoran sahibləri bundan istifadə edib qiyməti qaldırır, inhisarçılığa yol verir, həm də rəsmi nikaha daxil olan, eyni zamanda, övladları dünyaya gələn ailələr də toy şənliyi keçirir. Bunda əsas məqsəd əvvəlki dönəmdə xərclənmiş pulların yığılmasıdır".

**Kulturoloq Aydınxan Əbilov açıqlamasında deyib ki, nə qədər tərifləsək də, toy müasir, kreativ biznesin və yaxud şou-biznesin hadisəsidir.**

Onun sözlərinə görə, dəvətnamə alan şəxslər xeyir-dua vermək əvəzinə problemlə qarşılaşdığı üçün depresiyaya düşürlər: "Elə mənə də, üç dəvətnamə gəlib. Cəmiyyət toylardan imtina etmə mədəniyyətini öyrənməlidir. Yaxın qohumlarınız, iş yoldaşlarınız və ya dostlarınızdan başqa digər yad adamlar sizi toya dəvət edirsə, onunla münasibəti möhkəmləndirmək marağınız yoxdursa, o toya getməyə bilərsiz. Belə ki, özünüz toy edəndə qarşılıqlı olaraq dəvətnamə göndərib həmin adamlardan borcunuzu tələb etməmiş olarsız. "Gündə məni toya çağırırlar" düşüncəsi ilə toyda iştirak edərək gənclərə bəd dua etmiş olursuz, elə əvvəlcədən imtina edin".

**Aygün Tahirqızı**



## Kiçik ehtiyatsızlıq yanğınlarla nəticələnir

### FHN hava şəraiti ilə bağlı əhaliyə müraciət edib

**Yaxın günlərdə ölkə ərazisində havanın temperaturunun daha da yüksələcəyi, bəzi yerlərdə temperaturun 42-43 dərəcəyədək artacağı gözlənilir.**

**Fövqəladə Hallar Nazirliyi (FHN) bununla əlaqədar əhaliyə müraciət edib.**

**Bildirilib ki, belə hava şəraitində kiçik ehtiyatsızlıq və ya diqqətsizlik müxtəlif məkanlarda, xüsusilə açıq sahələrdə və meşə massivlərində yanğınlarla nəticələnir, həmçinin kondisionerlərə tələbatın yüksəlməsi elektrik naqillərinin yüklənib sonda qısaqapanmaya səbəb olma riskini artırır.**

**"Yüksək temperaturun yanğın təhlükəsini artırdığını nəzərə alaraq yanğın təhlükəsizliyi qaydalarına ciddi əməl etməyə çağırırıq. Həmçinin günvurma təhlükəsindən qorunmaq üçün belə günlərdə açıq havada, o cümlədən çimərliklərdə günəş şüaları altında çox qalmamaq, habelə açıq rəngli, yüngül, xüsusilə pambıq parçadan olan geyimlərdən istifadə etmək, daha çox kölgədə və ya sərin yerdə qalmaq və bol maye qəbul etmək tövsiyə olunur", - müraciətdə vurğulanıb.**

# Füzulidə Azərbaycan sərhədini pozan Rusiya vətəndaşı saxlanılıb




## Bağlamalara keçirilən baxış zamanı ümumi çəkisi 14 kiloqram 500 qram narkotik aşkarlanıb

**Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin Füzuli rayonunun Bala Bəhmənli kəndi ərazisində yerləşən sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin pozulması əlamətləri aşkar edilib, sərhəd zastavası "Silaha" komandasına qaldırılaraq ərazi qapadılıb.**

DSX-nin Mətbuat mərkəzindən

"Şərq"ə verilən məlumata görə, keçirilən sərhəd axtarışı və əməliyyat tədbirləri nəticəsində Füzuli rayonunun Araz-Zərgər kəndi ərazisində gizlədilmiş yerdən 2 ədəd bağlamanı götürərək "Toyota Camry" markalı avtomobillə ərazidən uzaqlaşmağa cəhd göstərən 2 nəfər şübhəli şəxs saxlanılıblar.

Avtomobil sürücüsünün Moskva şəhər sakini 1977-ci il təvəllüdlü Vəliyev Hüseyn Vəlixan oğlu və sərnişinin Hacıqabul şəhər sakini 1976-cı il təvəllüdlü Məmiyev Teymur Adil oğlu olmaları müəyyənləşdirilib, onların götürdükləri bağlamalara keçirilən baxış zamanı ümumi çəkisi 14 kiloqram 500 qram narkotikə (8200 qram marixuana, 4200 qram heroin, 2100 qram metamfetamin) və 690 ədəd "Metadon-40" psixotrop tərkibli dərman həbinə bənzər maddə aşkar olunub.

**Aynurə**

**Biləsuvar rayonunda intihar baş verib. Hadisə ötən gecə rayonun Bəydili kəndində olub. Həmin kəndin sakini, 1995-ci il təvəllüdlü M.Mirzəyev özünü yarımtikilidə asaraq həyatına qıyıb. Faktla bağlı Biləsuvar Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.**



# Biləsuvarda gənc öz həyatına qıydı

## İntiharın qarşısını almağın yolları aranmalıdır

Təəssüf ki, son vaxtlar analoji hallar artmaqdadır. Bir çoxları, xüsusilə gənclər intihara çıxış yolu kimi baxırlar.

**Psixoloq Aysel Həsənova artmaqda olan tendensiya barədə "Şərq"ə danışıb:** "Adətən yeniyetmələri intihara sövq edən mənən boşluğa düşmələri, özlərinə yer tapa bilməmələri, həyata niyə gəldiklərini anlamamaları olur. Həmçinin, daxili suallarının cavabsız qalması, dəstəyin olmaması da onları belə həddə gətirə bilər. Təsadüfi deyil ki, yeniyetməlik böhran dövrü hesab olunur. Və bu, beyinin inkişafı ilə əlaqədər olaraq 13-24 yaşı əhatə edir".

Psixoloq, həmçinin çıxış yolunu da göstərdi: "İlk növbədə valideynlər övladlarına dəstək verməlidirlər. Eyni zamanda pedaqoqlar da yeniyetmələrə kömək etməli, onların problemləri ilə maraqlanmalıdır. Yeniyetmələrin ünsiyyət dairəsi geniş olmalıdır.

Kimlərəsə güvənməli, inanmalıdırlar. Anında dəstək ala biləcəkləri kimsə varsa, bu, yeniyetmə üçün avantajdır. Yaxşı olar ki, həmin şəxs ailədən kənar olsun. Belədə yeniyetmələr gələcəkləri ilə bağlı daha inamlı davranır, önəmli olduqlarını anlayırlar".

**Kənan**

# Bu dəfə bağışlanmayacaq

## İrana qarşı ciddi addımlar atılacaq



Oman sahillərində "Mercer Street" tankerinə hücum olub. Nəticədə Britaniya və Rumıniya vətəndaşları olan iki ekipaj üzvü ölüb. Sonradan ekipaj gəmiyə nəzarəti bərpa edib və ABŞ Hərbi Dəniz Qüvvələrinin müşayiəti ilə hərəkət etməyə başlayıb. "Associated Press" agentliyi xəbər verir ki, Liberiya bayrağı altında üzən "Mercer Street" gəmisi "Zodiac Group"un sahibi olan israilli iş adamı Eyal Oferə məxsusdur.

ABŞ Hərbi Qüvvələrinin Mərkəzi Komandanlığı (CENTCOM) tankerə pilotsuz təyyarə ilə hücum edildiyi qənaətindədir. ABŞ dövlət katibi Entoni Blinken jurnalistlərə verdiyi açıqlamada bildirib ki, Birləşmiş Ştatlar İrana ticarət gəmisinə hücumla bağlı cavab verəcək. O qeyd edib ki, ABŞ İngiltərə, İsrail və Rumıniya ilə sıx əlaqədədir və hadisəyə kollektiv cavab veriləcək. Qeyd edək ki, ticarət gəmisinin vurulması beynəlxalq hüququn açıq şəkildə pozulması kimi qiymətləndirilir. Maraqlıdır bu məsələdə İranı digər dövlətlər tərəfindən hansı təhlükələr gözləyir?

**Sualımızı cavablandıran Sosial Tədqiqatlar Mərkəzinin Daxili siyasətin təhlili departamentinin baş məsləhətçisi, politoloq İlyas Hüseynov "Şərq"ə açıqlamasında deyib ki, Britaniya və Rumıniya vətəndaşları olan iki ekipaj üzvünün həlak olması ilə nəticələnən hadisədə İrana qarşı ciddi addımların atılacağı gözlənilir:** "Eyni zamanda hadisə ilə bağlı Amerika Birləşmiş Ştatlarının da müdaxilə etməsi məsələni daha qəlizləşdirə bilər. Qeyd edim ki, İranın bu hücumda əlinin olması və pilotsuz uçuş aparatlarının məhz ona məxsus olması ilə bağlı versiyalar, mülahizələr öz təsdiqini taparsa, İrana qarşı beynəlxalq sanksiyaların olması qaçılmazdır. Eləcə də məsələ ilə bağlı daha kəskin addımların atılacağı ehtimal olunur. Bir faktı da qeyd edim ki, İranın Ələlam dövlət kanalı da bu məsələ ilə bağlı heç bir təkzib xarakterli məlumat vermədi. Kanalda sırf İsraili günahlandırmaq xarakterli bir məlumat verildi. Həmçinin, Suriya aeroportunda baş vermiş hadisəyə cavab olaraq bu hadisənin olması qeyd olundu. Ümumən bu məsələdə ABŞ, Böyük Britaniya, İsrail və Rumıniyanın İrana qarşı birgə hərəkət edəcəyini nəzərə alsaq, onun nəinki siyasi-diplomatik, eləcə də iqtisadi müstəvidə zərər çəkəcəyini proqnozlaşdıra bilərik. Əgər bu məsələyə Birləşmiş Millətlər Təşkilatında da baxılarsa, İrana qarşı kəskin və sərt addımların atılacağı ehtimalı böyükdür".

**Aynurə Pənahqızı**

## Jurnalist alov içində qalıb




**İngiltərənin "Sky news" xəbər kanalının müxbiri Alex Cravford Türkiyədə yanğınlar arasında qalıb.**

Bu barədə "Şərq" "Posta"ya istinadən xəbər verir. Bildirilir ki, Muğlanın Milas vilayətindəki yanğınlardan danışan jurnalist çox sürətlə yayılan yanğının içində qalıb. O, gördüklərini "Sky news"-un xəbər saytında yazıb. Müxbir meşələrin arasında bir kəndin dəqiqələr içində alova büründüyünü vurğulayıb.

**Kənan**

## Rusiyada yoxsulluğu azaltmaq olar

### Bunun üçün bir neçə yüz milyard rubla ehtiyac var



**Rusiyada yoxsulluğu yarıbayarı azaltmaq mümkündür. "Şərq" TASS-a istinadən bildirir ki, bunu Hesablama Palatasının rəhbəri Aleksey Kudrin söyləyib.**

O, 2020-ci ildə Rusiyada yoxsulluğun 12,1 faiz olduğunu xatırladıb. Kudrinin sözlərinə görə, bu göstəricinin azalması üçün bir neçə yüz milyard rubla ehtiyac var.

**Kənan**



## Təhdid nöqtələri susdurulacaq

### Bakı İrəvana adekvat cavab verməlidir

**Sərhəddə Ermənistanın təxribatları davam edir. Düşmən silahı yerə qoymur. Əvvəl Kəlbəcər, sonra isə Naxçıvan istiqamətində ard-arda törədilən provokasiyalar çoxlarının fikrincə, növbəti anti-terror əməliyyatlarını labüd edir.**

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri Fərəc Quliyev bu barədə "Şərq"ə danışıb. O, təxribatlara zəmin yaradan səbəbləri sadalayıb:** "Məsələ ondan ibarətdir ki, 10 noyabr üçtərəfli bəyanatına əməl olunmur. Ermənistan müddəaların icra edilməsini ləngitmək məqsədilə vəziyyəti gərginləşdirir. Əgər Rusiya razılığın dördüncü maddəsinə uyğun olaraq erməni yaraqlılarını Qarabağdan çıxarsa idi, belə olmazdı.

Həmçinin, kommunikasiya xətlərinin, xüsusilə Zəngəzur dəhlizinin açılmaması, Qarabağdan qovulmuş Azərbaycan türklərinin geri qaytarılmaması xaotik durum formalaşdırır".

**F.Quliyevin fikrincə, Bakı İrəvana adekvat cavab verməlidir:** "Rusiya bilərəkdən maddələrin icrasını gecikdirir və təxribat üçün Ermənistana işarə verir. Beləliklə, yeni gərginlik yaranır və tədricən razılıqlar unudulur. Düşünürəm ki, düşmənin bu addımları davam etsə, müharibə üçün səbəb yaranacaq. Və Azərbaycan təhdid nöqtələrini susdurmağa məcbur qalacaq".

**Kənan**

# Payızda referendum keçirilmə ehtimalı var




*Deputatların sayı artırılacaq, icra başçısı vəzifəsi ləğv olunacaq*

Son günlər bəzi media orqanlarında və sosial şəbəkələrdə Azərbaycanda bu ilin payızında referendum keçiriləcəyi, bunun ardınca isə parlamentin buraxılacağı barədə məlumatlar yayılıb. Hakim Yeni Azərbaycan Partiyasından isə deyilib ki, hazırda partiyada hər hansı referendum və seçkinin keçirilməsi məsələsi müzakirə olunmur.

Məsələyə münasibət bildirən bəzi millət vəkilləri, o cümlədən YAP-ı təmsil edən deputatlar da ölkədə referendum keçirilməsinə və parlamentin buraxılacağına dair məlumatları təkzib edirlər.

**Referendum müzakirələrinə münasibət bildirən siyasi şərhçi, jurnalist Aqşin Kərimov "Şərq"ə bildirib ki, qanunvericiliyə əsasən, referendumla yalnız Konstitusiyaya mətninə dəyişikliklər və sərhədlərin dəyişdirilməsi həll olunur.** Analitik vurğulayıb ki, son bir neçə ildə baş verən hadisələr Konstitusiyaya dəyişikliklər zərurətini ortaya çıxarır: "Azərbaycanda icra başçısı vəzifəsinə etimad yoxdur. Xüsusilə büdcəni talayıb şəxsi məqsədləri üçün istifadə edən icra başçılarının həbsindən sonra həmin posta inam daha da azalıb. Ona görə də, icra başçısı vəzifəsinin ləğvi aktuallıq qazanır. Böyük ehtimal ki, bu vəzifə ləğv edilsə, bütün regionlar üzrə Prezidentin xüsusi nümayəndəsi vəzifəsi təsis ediləcək. Hazırda isə bu vəzifə yalnız işğaldan azad edilmiş ərazilərə münasibətdə keçərlidir.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli parlamentin iclaslarının birində bildirmişdi ki, Prezidentin xüsusi nümayəndəsi vəzifəsi özünü doğrultsa, bu, bütün Azərbaycanda tətbiq ediləcək. Bu isə hansısa qanuna dəyişiklikdən yox, birbaşa Konstitusiya dəyişikliyindən keçən məsələdir. Zənn edirəm, referendumda Milli Məclisin deputatlarının say tərkibinin artırılması səsverməyə çıxarılacaq. Çünki 125 deputat yeri artan əhali sayına adekvat deyil. Həmçinin, majoritar seçki sistemi qarışıq (proporsional və majoritar) seçki sistemi ilə əvəzlənə bilər. Bununla bağlı illərdir müzakirələr gedir".

**İsmayıl Qocayev**



## "Altılıq platforması" alınmadı

### Region dövlətlərinin mövqeləri, istəkləri üst-üstə düşmədi

**Regionda yenidən mürəkkəb geosiyasi vəziyyətin yaranması ilə bir vaxtlar gündəmdə olan "Altılıq platforması" sanki tədricən unudulmaqdadır.**

Hər halda bölgə dövlətlərinin bu barədə yekdil fikirləri yoxdur. Bu isə 3+3 formatının gələcəyini sual altında qoyur.

**Siyasi analitik Turab Rzayev sözügedən mövzu ilə bağlı "Şərq"ə danışıb:** "Region dövlətlərinin bu barədə mövqeləri, istəkləri üst-üstə düşmədi. Gürcüstan Rusiya faktoruna görə bunu istəmir. İran müəyyən səbəblərdən layihəyə maraq göstərmir. Ermənistan isə ümumiyyətlə, "Altılıq platforması"nın əleyhinədir. Odur ki, layihə uğursuzluğa düçar oldu, alınmadı. Halbuki, "Altılıq platforması" yaransa idi, regionda daimi sülh və sabitlik təmin olunardı. Bu, qlobal güclərin, ən azı Qafqaz məsələsini bəhanə edərək Türkiyə, Rusiya və İranı üz-üzə qoymasının da qarşısını alacaqdı".

**Kənan**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**İnformasiya və kommunikasiya texnologiyalarının inkişaf etdirilməsi**



# "ASAN xidmət" modeli genişlənməlidir

*Vüqar Bayramov: "Növbəti mərhələdə sadəcə coğrafi deyil, səlahiyyət cəhətdən də genişlənmə vətəndaşlarımızın elektron xidmətlərdən daha səmərəli istifadəsinə imkan yaradacaq"*

Dövlət qurumlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının tətbiqi istiqamətində son illərdə əhəmiyyətli işlər görülüb, müvafiq hüquqi baza formalaşdırılıb. Əksər dövlət orqanlarında əhaliyə elektron xidmətlərin göstərilməsi təmin olunub və bu proses sürətlə davam edir.

Dövlət başçısı İlham Əliyevin təşəbbüsü ilə 2012-ci ildə Prezident yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi və onun tabeliyində "ASAN xidmət" mərkəzlərinin yaradılması bürokratik əngəllərin və mümkün korrupsiya hallarının aradan qaldırılmasında inqilabi dəyişiklik etdi. Eyni zamanda innovasiya sahəsində Azərbaycan brendi kimi dünyada tanındı. Bəllidir ki, Azərbaycanda Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət siyasətinin mühüm tərkib hissələrindən biri də əhalinin sosial məsələlərinin həlli, onların dövlət orqanlarının xidmətlərinə əlçatanlığının təmin edilməsi və vətəndaş məmnunluğunun daha da artırılmasıdır. Məlum olduğu kimi dünən ölkə rəhbəri 6 saylı Bakı "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib. Agentliyin sədri Ülvi Mehdiyev dövlət başçısına Bakıda 6-cı, ölkə üzrə isə 21-ci olan bu "ASAN xidmət" mərkəzi barədə məlumat verib. Bildirib ki, 6 saylı Mərkəzdə müxtəlif dövlət orqanları, özəl şirkətlər və kommunal xidmət qurumları qeydiyyat yerindən asılı olmayaraq bütün vətəndaşlara ümumilikdə 320-dən çox xidmət göstərəcək. Dövlət orqanlarının bu mərkəzdə fəaliyyət göstərəcək işçiləri də daxil olmaqla ümumilikdə 230 əməkdaş və 85 könüllü çalışacaq. Onların mütləq əksəriyyəti şəhid ailələrinin üzvləri və qazilərdən, Vətən müharibəsinin iştirakçılarından ibarətdir. O da vurğulanıb ki, hazırda fəaliyyət göstərən 20 "ASAN xidmət" mərkəzinin 5-i Bakıda, digərləri isə bölgələrdədir. Bakı, Gəncə və Sumqayıtda növbəti, Lənkəran, Salyan və Naxçıvanda isə ilk "ASAN xidmət" mərkəzləri inşa olunur. Regionlarda 10 səyyar "ASAN xidmət" avtobusu və səyyar "ASAN qatar" vasitəsilə vətəndaşlara xidmətlərin göstərilməsi də davam etdirilir. Bu günədək "ASAN xidmət"ə 7 milyon 465 mindən çox vətəndaşın 45 milyondan artıq müraciəti daxil olub. Keçirilən rəy sorğularına əsasən vətəndaşların xidmətlərdən məmnunluq əmsalı 99,5 faiz təşkil edir. Dövlət başçısına 16 ölkədən 500-dən çox iştirakçının qatıldığı Qlobal Müdafiə Texnologiyaları Hakatonu və Vətən müharibəsində tvit siyasəti barədə də məlumat verilib. Qeyd edək ki, müharibə dövründə ilk yerdə dövlətimizin başçısının tvitləri dayanıb. Bu tvitlərə 396 min baxış olub. Xüsusən, "#karabakhisazerbaijan" həştəqi 800 mindən çox paylaşılmaqla bu mövzuda ən çox paylaşılan həştəq olub. Prezident İlham Əliyevə ASAN sosial innovasiyalar texnoparkı, Görmə məhdudiyyətli şəxslər üçün xüsusi eynək layihələri və ASAN ICESCO mükafatı barədə də məlumatlar verilib.

Xatırladaq ki, Prezident İlham Əliyevin ötən ilin dekabrında imzaladığı Fərmanla yaradılan "YAŞAT" Fondunun dəstəyi ilə Vətən müharibəsi qazilərinin sağlamlıqlarının bərpa olunması istiqamətində də çox mühüm işlər görülüb. Şəhid ailələri üzvlərinin və yaralıların elektron xidmətlər vasitəsi ilə etdikləri 1152 müraciət üzrə 3,8 milyon manat kredit Fond tərəfindən ödənilib. 5667 müraciət üzrə şəhid ailəsi üzvlərinin və yaralı hərbçinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üçün 22,6 milyon manat, bu qəbildən olan 2357 şəxsin tibb və xaricdə təhsil haqlarının ödənilməsi üçün isə 5.6 milyon vəsait ayrılıb. 120 ağır yaralı müalicə üçün Türkiyəyə göndərilib. Onların 64 nəfəri tam sağalıb, 56 nəfər isə hazırda müalicədədir. Bundan başqa, "Onlar bizə əmanət" layihəsi çərçivəsində Vətən müharibəsindən sonra dünyaya gələn 100 şəhid övladına 1000 manat məbləğində maddi yardım olunub, onların adına 5000 manat məbləğində depozit hesab açılıb. Vahid məlumat bazasında Vətən müharibəsi zamanı mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, sahibkarlıq subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı ətraflı məlumat yerləşdirilib.

**Millət vəkili, iqtisadçı-alim Vüqar Bayramov "Şərq"ə açıqlamasında bəyan edib ki, Azərbaycanda elektron xidmətlərin təklif olunması dövlət və qeyri-dövlət qurumlarının elektronlaşmasında xüsusi paya malikdir. Deputatın sözlərinə görə, ASAN xidmət bir sıra ölkələr, eləcə də beynəlxalq təşkilatlar tərəfindən model olaraq öyrənilir:** "Bəzi ölkələr artıq oxşar təcrübənin tətbiqinə başlayıblar. Sorğular göstərir ki, ASAN xidmət özünü tam doğruldub. Xüsusən, ASAN xidmətin təsis edildiyi ilkin dövrlə indini müqayisə etsək, çoxsaylı yeni xidmətlərin təklif olunmasını və fəaliyyət coğrafiyasının genişlənməsini müşahidə edərik. Texniki və maliyyə imkanları daxilində ASAN xidmətin mümkün qədər daha çox bölgələrdə fəaliyyət göstərməsinə nail olunması prioritetdir".

**Parlament üzvü vurğulayıb ki, ASAN xidmətlərin səlahiyyətlərini də genişləndirmək lazımdır:** "Bir sıra dövlət xidmətlərinin də ASAN xidmət vasitəsi ilə təklif olunması daha məqsədəuyğun olardı. Bu mərkəzlər korrupsiyaya qarşı mübarizədə və şəffaflığın gücləndirilməsində önəmli modeldir. Bu model cəmiyyət tərəfindən qəbul edilir. Rəsmi və qeyri-rəsmi sorğulardan görürük ki, ASAN xidmət praktiki olaraq şəffaf fəaliyyət göstərir. Şəffaflıq vətəndaş məmnunluğunun formalaşması baxımından çox vacibdir. Düşünürəm ki, növbəti mərhələdə sadəcə coğrafi deyil, səlahiyyət cəhətdən də genişlənmə vətəndaşlarımızın elektron xidmətlərdən daha səmərəli istifadəsinə imkan yaradacaq".

**İsmayıl Qocayev**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**

# Vəzifəlilərə qarşı cəmiyyət aqressivləşib

Razi Nurullayev: "Qanundankənar çağırışların sayı kimyəvi reaksiya sürəti ilə artmaqdadır"

"Fürsət gözləyən nə qədər insan var ki, onlar bu məsələni və müzakirəni Parlamenti vurmaq və gözdən salmaq üçün istifadə edirlər". Bu fikirləri Milli Məclisin iclasında çıxış edən deputat Razi Nurullayev səsləndirib.

Parlament üzvü bildirib ki, cəmiyyətin xeyli aqressivləşməsi və vəzifəli şəxslərin cəzalandırılmasına, həbs edilməsinə toy-bayram kimi yanaşması qəbuledilməzdir: "Bunun bir səbəbi bəzi vəzifəli şəxslərin vətəndaşları davamlı olaraq narazı salması, onları yerli-yersiz incitməsi, bəzən isə "anadan əmdiyi südü burnundan gətirməsi"dir. Digər səbəbi isə bir qrup insanın cəmiyyətdə davamlı olaraq qarşıdurma yaratmaq, narazılıqları böyütmək, hər düşən fürsətdən faydalanaraq ölkəni təlatümə sürükləyib qarışıqlıq salmaq cəhdləridir. Bunların içərisində çoxluğu xaricdə rahat və təhlükəsiz yerlərdə oturub 24 saat nifrət və söyüş püskürənlər təşkil edir. Digər qismi isə ölkədə olan bəzi siyasilərdən və onların təsir edib başını döndərdiyi vətəndaşlardan ibarətdir. Amma bilin ki, fürsət qovalamaq, hər küncdə-bucaqda qurşaqdan



aşağı zərbə endirməyə çalışmaq insani hiss deyil və siyasətçiyə yaraşmaz. Çünki bu siyasətin də iki başı var və o biri başı gəlib öz təpənizi əzəcək".

**R.Nurullayev qeyd edib ki, cəmiyyətin qəddarlaşması onu çox narahat edir:** "Kim qanunu pozubsa, haqqında hüquqi çərçivədə tədbir görülməlidir. Amma hər dəfə qanundankənar çağırışların sayı kimyəvi reaksiya sürəti ilə artmaqdadır. Sosial şəbəkələrdə məmurları, vəzifəli şəxsləri "kəsək, öldürək, asaq, yandıraq, ayağına daş bağlayıb dənizə ataq, dərisini soyaq, təyyarəylə göyə qaldırıb başıaşağı tullayaq" kimi ifadələrin sayı-hesabı yoxdur. Axı bu, nə yanaşmadır, nə ritorikadır? Bu şəkildə cəmiyyət hara yuvarlanır?".

**İsmayıl**

# "Ölkəmizdə dollara maraq azalıb"



2021-ci ilin iyun ayında kredit təşkilatlarında yerləşdirilmiş depozit və əmanətlərin cəmi məbləği 24 milyard 157 milyon manat təşkil edib. Bu barədə Mərkəzi Banka istinadən xəbər verir. 2020-ci ilin eyni dövrü ilə müqayisədə bu il kredit təşkilatlarına yerləşdirilmiş depozit və əmanətlərin cəmi məbləği 1 milyard 591 milyon manat azalıb.



Cari ilin iyun ayında cəmi depozit və əmanətlərin 8 milyard 435 milyon manatı ev təsərrüfatlarına, 1 milyard 775 milyon manatı maliyyə təşkilatlarına, 13 milyard 946 milyon manatı qeyri-maliyyə təşkilatlarına məxsus olub. Belə ki, illik müqayisədə ev təsərrüfatlarına məxsus depozitlər 729 milyon manat artıb, maliyyə təşkilatlarına məxsus depozitlər 319 milyon manat azalıb, qeyri-maliyyə təşkilatlarına məxsus depozitlər isə 1 milyard 180 milyon manat artıb. İyun ayında cəmi depozit və əmanətlərin 12 milyard 477 milyon manatı və ya 52 faizi xarici valyuta ilə yerləşdirilib.

**Məsələ ilə bağlı bank işləri üzrə ekspert, iqtisadçı Əkrəm Həsənov "Şərq"ə açıqlama verərək qeyd edib ki, depozitlərin ötən illə müqayisədə azalmasının bir çox səbəbləri vardır:** "İlk növbədə qeyd edim ki, pandemiya dövründə vətəndaşlar banklarda olan əmanətlərini çəkdilər. Təbii ki, bu tendensiya yalnız bizdə deyil, bütün dünyada müşahidə olundu. Çünki insanların gəlirləri düşdü, həmçinin bəziləri pandemiya səbəbindən panikada oldular. Digər səbəb isə ötən il ölkəmizdə dörd bankın bağlanmasıdır. Bunun nəticəsində də banklar əmanət itirdi. Həmçinin, şirkətlərin və hüquqi şəxslərin pandemiya dövründə iqtisadi aktivliyi xeyli aşağı düşdü. Buna görə də bankların vəsaitlərində kəskin azalmalar müşahidə olundu".

Əkrəm Həsənov: "Bunun səbəbi manatın son vaxtlar öz sabitliyini qoruması ilə əlaqəlidir"

*Ə.Həsənov vurğulayıb ki, bu günləri ölkəmizdə əksər insanlar milli valyuta ilə depozit qoymaqda maraqlıdırlar:* "Ötən illərlə müqayisədə bu il əmanətlərin xarici valyutayla qoyuluşunun həcmi azalıb. Ancaq bundan öncəki illərdə həcm baxımından bu daha çox idi. Ölkəmizdə dollara olan maraq da azalıb. Bunun isə səbəbi manatın son vaxtlar öz sabitliyini qoruması ilə əlaqəlidir. Qeyd edim ki, manatla vətəndaşlara ödənilən əmanətlərin faiz dərəcəsi xarici valyutayla ödənilən faiz dərəcəsindən xeyli çoxdur. Yəni manatla 10-12 faiz, dollarla 1-2 faiz arasıdır. Məhz buna görə də, insanlar əmanətlərini milli valyuta ilə qoyurlar".

**Aynurə Pənahqızı**



## Bakıda 8 yeni məktəb binası inşa olunur

Onlardan 5-də tikinti işləri artıq yekunlaşıb

**Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tabeliyindəki 7 ümumi təhsil müəssisəsində tikinti və əsaslı təmir işləri aparılır.**

İdarədən verilən məlumata görə, ehtiyac olan ərazilərdə 8 yeni məktəb inşa olunur.

Onlardan 5-də tikinti işləri artıq yekunlaşıb. Hazırda 205 nömrəli tam orta məktəbin bütövlükdə sökülərək yenidən tikintisi, 71 və 307 nömrəli tam orta məktəblərin köhnə korpuslarının əsaslı təmiri və yeni korpusun tikintisi, 320 nömrəli tam orta məktəbin əsaslı təmiri və bərpa-gücləndirmə işləri davam edir.

Bundan əlavə, 87 nömrəli tam orta məktəbin köhnə korpusunun, 35 və 263 nömrəli tam orta məktəblərin isə qəzalı vəziyyətdə olan korpuslarının söküntü işlərinə başlanılıb.

Eləcə də ehtiyac olan bütün təhsil müəssisələrində cari təmir və mühəndis-kommunikasiya işləri həyata keçirilir.

*Qeyd edək ki, Azərbaycanda məktəb infrastrukturunun inkişafına və təhsilalanların tədris şəraitinin yaxşılaşdırılmasına xidmət edən dövlət siyasəti sayəsində təhsil müəssisələrinin mütləq əksəriyyəti müasir tələblər səviyyəsində yenidən qurulub. Paytaxt məktəblərində aparılan tikinti və təmir-bərpa işlərinin tezliklə yekunlaşdırılması nəzərdə tutulur.*



## Təlimçilər bacarıqlı, tanınmış simalardır

"Onların arasında altı il həbsdə qalan, İŞİD-in əsirliyində olmuş şəxslər var"

**Azərbaycan Respublikasının Medianın İnkişaf Agentliyi, ADA Universiteti, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi və Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) birgə təşkilatçılığı ilə "Al Jazeera" media şəbəkəsinin Azərbaycan media nümayəndələri üçün "Jurnalistlərin münaqişə zonasında davranışları: Təhlükəsizlik və mühafizə qaydaları" mövzusunda təlimləri davam edir.**

Avqustun 5-dək keçiriləcək təlimlərdə müxtəlif media subyektlərindən 25 nümayəndə iştirak edir. **"Qazilər.az" saytının baş redaktoru, jurnalist Rey Kərimoğlu təlimlər barədə "Şərq"ə danışıb:** "Təlimlər həm nəzəri, həm də praktik cəhətdən əhəmiyyətlidir. Yüksək səviyyədə təşkil olunub. Demə, bilmədiyimiz xeyli məlumat var imiş. Təlimçilər kifayət qədər bacarıqlı, tanınmış şəxslərdir. Onların arasında altı il həbsdə qalan, İŞİD-in əsirliyində olmuş şəxslər var".

**Kənan**

# TANAP-ın da operatoru SOCAR-dır

*"Türkiyə-Yunanıstan sərhədinə qədər uzanan magistral qaz kəmərinin cavabdehliyi bizdədir"*



"Azərbaycanın enerji sektorunda mühüm hadisə baş verib. Cənubi Qafqaz Boru Kəmərinin operatorluğunun "BP" şirkətindən SOCAR-a ötürülməsi prosesi başa çatıb". Bu barədə Neft Araşdırmalar Mərkəzinin rəhbəri İlham Şaban deyib. İqtisadçı hesab edir ki, əksəriyyət fərqinə varmasa da, burada ciddi və faydalı məqamlar var: "Kimsə "Ac həriflər" tamaşasındakı intilligent kimi deyə bilər ki, "hə, noolsun?".

Əvvəla, bundan sonra hələ onilliklər istismarda olacaq qaz nəqletmə strukturumuzda strateji əhəmiyyətə malik bir layihədə operatorluğa yiyələndik. Bəs operator nədir? Operator müxtəlif oyunçulardan, səhmdarlardan ibarət komandanın kapitanı deməkdir.

SOCAR Şahdəniz layihəsində 2015-ci ildən qazın kommersiya operatoru rolunda çıxış edir. Yəni qazın alqı-satqı məsələlərinin istər Azərbaycanın, istərsə də "Şahdəniz" konsorsiumu iştirakçılarının maraqları çərçivəsində optimal qazancla daha uzun müddətə satılması vəzifəsini həyata keçirir. Bu gündən etibarən isə Şahdənizdən çıxarılan qazın həm də Səngəçal terminalından Gürcüstan-Türkiyə sərhədinədək nəql edilməsi məsələlərinə rəhbərlik edəcək. Yeni SOCAR-ın vəzifəsi Cənubi Qafqaz Boru Kəmərinin təhlükəsiz, ətraf mühitə xələl gətirmədən stabil istismarına cavabdehlikdir".

**İ.Şaban diqqətə çatdırıb ki, Gürcüstan-Türkiyə sərhədində başlayan TANAP-ın da operatoru SOCAR-dır: "Düz Türkiyə-Yunanıstan sərhədinə qədər uzanan magistral qaz kəmərinin cavabdehliyi bizdədir.** "Neftimizi, qazımızı xaricilər çıxartdı, bəs axırı" sualının cavabının bir hissəsi budur. Yəni bir var əcnəbinin əlinin altında işləyəsən, bir də var işlər sənin rəhbərliyin altında getsin. Arzum odur ki, SOCAR nə vaxtsa məhsuldar bir yatağın işlənməsi ilə bağlı keçirdiyi beynəlxalq, açıq tenderin qalibi ola və hasilatçı-operator kimi adını tarixə yazdıra".

**İsmayıl**

# Müəllimlərin işə qəbulunda keçid balları aşağı düşdü



*Kamran Əsədov: "İmtahanda sualların problemli olması keçid ballarını 30-a endirdi"*

Avqustun 3-dən Azərbaycan dili, alman dili, fizika, fiziki tərbiyə, fransız dili, kimya, informatika, riyaziyyat, rus dili və ədəbiyyatı, texnologiya və təsviri incəsənət fənləri üzrə test imtahanlarında iştirak etmiş namizədlər üçün vakansiya seçimi mərhələsinə başlanılıb.

Vakansiya seçimi prosesi 6 avqust saat 10:59-dək davam edəcək. Qeyd edək ki, müəllimlərin işə qəbulu müsabiqəsində informatika fənni üzrə iştirak etmiş namizədlərə bu il ilk dəfə olaraq "Rəqəmsal bacarıqlar" layihəsi üzrə də yer seçmək imkanı verilib.

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Şərq"ə bildirib ki, cari ildə müəllimlərin işə qəbul imtahanlarında təqdim edilmiş test tapşırıqları bilavasitə öz nəticəsini keçid balının aşağı salınmasında göstərib:** "Qeyd edim ki, əvvəlki illərdə Bakı şəhərində müəllim olmaq üçün keçid balı 48, bölgələrdə isə 36 bal idi. Bu il müəllimlərin işə qəbul imtahanında sualların problemli olması keçid ballarının 30-a enməsinə gətirib çıxardı. Artıq Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya kimi fənlərdə keçid balı 30 olaraq müəyyənləşdirilib. Bu isə o deməkdir ki, qeyri profilli ixtisaslarda keçid balları daha aşağı olacaq. Hesab edirəm ki, bu çox ciddi məsələdir".

**K.Əsədov bildirib ki, bu il də rus bölməsi üzrə Azərbaycan məktəblərində kadr çatışmazlığı yaşanmaqdadır:** "Hazırda rus bölməsi üzrə tarix, fizika, kimya, biologiya və riyaziyyat vakansiyaları üzrə ciddi kadr çatışmazlığı yaşanır. Xüsusən yuxarı siniflərdə bu fənlərin tədrisində ciddi problemlər mövcuddur. Baxmayaraq ki, ali təhsil müəssisələrinə qəbul imtahanlarında həmin ixtisaslar üzrə plan yerləri tam olaraq dolur. Ancaq maraqlısı odur ki, həmin şəxslər təhsillərini başa vurduqdan sonra bu ixtisas üzrə işləməkdə maraqlı deyillər. Hesab edirəm ki, Azərbaycanda bu istiqamətdə xüsusi proqramlar, dövlət strategiyası hazırlanmalıdır. Yeni müəllimə olan ehtiyacın aradan qaldırılması üçün rus bölməsi üzrə işləyəcək şəxslərə gələcəkdə müəyyən imtiyazlar tanınmalıdır".

**Təhsil eksperti vurğulayıb ki, ölkəmizdə təhsil müəssisələrində rəqəmsal bacarıqların öyrədilməsinə də ehtiyac var:** "Rəqəmsal bacarıqlar yalnız paytaxt Bakıda deyil, digər şəhərlərdə də tədris olunmalıdır. Çünki bu gün müasir dövrün tələblərindən biri müasir İKT bacarıqlarına malik olan şəxslərin yetişdirilməsidir. Hesab edirəm ki, rəqəmsal bacarıqlar bütün siniflərdə tədris edilməlidir, xüsusən də 9-11-ci siniflərdə. Çünki həmin şəxslər təhsillərini başa vurduqdan sonra əmək bazarında müasir İKT bacarıqları olduğu üçün rahatlıqla işlə təmin oluna biləcəklər. Bundan başqa, bu dayanıqlı iqtisadiyyatın formalaşmasına da öz müsbət təsirini göstərəcək".

**Aynurə Pənahqızı**

## Bakıda 41, bəzi rayonlarda 43 dərəcə isti olacaq



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidməti ölkə ərazisində gözlənilən hava şəraiti haqqında məlumat yayıb.**

Məlumatda bildirilir ki, avqustun 4-8-də hava şəraitinin isti keçəcəyi, havanın maksimal temperaturunun Bakıda və Abşeron yarımadasında 35-39, bəzi yerlərdə 40-41, respublikanın rayonlarında 35-40, Naxçıvan MR-nın və aran rayonlarının bəzi yerlərində 42-43 dərəcəyədək yüksələcəyi gözlənilir.

## Bakı Metropolitenində xəttə yeni qatarlar buraxılıb



**Avqustun 3-də "Bakı Metropolieni" Qapalı Səhmdar Cəmiyyətinin yeni qatarları xəttə buraxılıb. Sputnik Azərbaycanın "Bakı Metropoliteni" Qapal Səhmdar Cəmiyyətinə istinadən verdiyi xəbərə görə, xəttə buraxılan müasir tipli dörd yeni qatarın hər biri beş vaqondan ibarətdir.**

Yeni gətirilmiş qatarlar, əsasən, "Həzi Asalnov-Dərnəgül" sahəsi boyunca hərəkət edəcək.

Xəbərdə deyilir ki, Rusiyanın "Transmaşholdinq" Səhmdar Cəmiyyətinin tərkibinə daxil olan "Metrovaqonmaş" müəssisəsi ilə imzalanmış müqavilə əsasında 2019-cu ildən etibarən 3 il ərzində Bakı Metropoliteni üçün istehsal edilməli olan 60 vaqondan 40-ı artıq istismardadır. Beləliklə də, Metropolitendə müasir standartlara uyğun gələn vaqonların sayı 95-ə çatıb.

## Bakıda iki polis rəisi işdən çıxarılıb

Bununla bağlı Vilayət Eyvazov müvafiq əmr imzalayıb



**Bakı şəhəri Nərimanov rayon Polis İdarəsinin rəisi vəzifəsini müqəvvəti icra edən polis polkovnik-leytenantı Farid Vəliyev işdən çıxarılıb.**

"Report"un əldə etdiyi məlumata görə, bununla bağlı daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov müvafiq əmr imzalayıb.

Nazirin daha bir əmri ilə Nərimanov RPİ-nin 17-ci Polis Şöbəsinin rəisi, polis polkovniki İltimas Yusifli də vəzifədən azad olunub.

F.Vəliyev və İ.Yusifli rayon ərazisində karantin rejimi qaydalarının mühafizəsində yol verdikləri nöqsanlara görə işdən çıxarılıblar.

Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin KİV və ictimaiyyətlə əlaqələr şöbəsinin rəisi, polis mayoru Elşad Hacıyev hər iki faktı "Report"a təsdiqləyib.

## Vaxt gəldi

Müəllim olmaq istəyənlər üçün vakansiya seçimi başlayıb



**Azərbaycan dili, alman dili, fizika, fiziki tərbiyə, fransız dili, kimya, informatika, riyaziyyat, rus dili və ədəbiyyatı, texnologiya və təsviri incəsənət fənləri üzrə müəllimlərin işə qəbulu müsabiqəsinin test imtahanı mərhələsində iştirak edən namizədlər üçün vakansiya seçimi başlayıb.**

"Report"un məlumatına görə, namizədlər saat 11:00-dan etibarən şəxsi səhifələrinə daxil olaraq vakansiya seçimi edə bilərlər. Bu ildən etibarən ilk dəfə olaraq müəllimlərin işə qəbulu müsabiqəsində informatika fənni üzrə iştirak etmiş namizədlərə "Rəqəmsal bacarıqlar" layihəsi üzrə də vakansiya seçmək imkanı verilib. Onlar şəxsi səhifələrinə daxil olaraq layihə üzrə çıxarılan vakansiyaları seçə bilərlər. Vakansiya seçimi prosesi 6 avqust saat 10:59-dək davam edəcək.

## Evdən çıxan koronavirus xəstəsi çayxanada tapıldı



**Tovuzda evdən icazəsiz çıxan koronavirus xəstəsinin yeri çayxanada müəyyən edilib.**

DİN-in Mətbuat Xidmətinin Gəncə regional qrupundan "Şərq"-ə verilən məlumata görə, verilən məlumata görə, keçirilən müvafiq tədbirlər nəticəsində nəticəsində koronavirus testinin nəticəsi pozitiv çıxan rayon sakini Füzuli İlyasov ev şəraitində müalicə almasına baxmayaraq, karantin qaydalarını kobud şəkildə pozaraq, yaşadığı evi tərk edərək çayxanaya getməsi aşkar edilib.

Müəyyən edilmiş tibbi prosedurlar gözlənilməklə F.İlyasov yaşadığı evə göndərilib.

Fakla bağlı İstintaq Bölməsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 139-1. (Epidemiya əleyhinə rejimin, sanitariya-gigiyena və ya karantin rejimlərinin pozulması) maddəsi ilə cinayət işi başlanıb, araşdırmalar davam etdirilir.

## "Asqo" ləqəbli sürücü qəza törədib

O, Taleh Aqamedovu vuraraq öldürüb, özü isə xəstəxanaya yerləşdirilib





**Xəbər verdiyimiz kimi, avqustun 2-də saat 19 radələrində Səngəçal qəsəbəsi ərazisində qəsəbə sakini M.Əhmədov idarə etdiyi "Toyota" markalı avtomobillə yolu keçən Bakı şəhər sakini Taleh Aqamedovu vuraraq öldürüb və özü isə xəstəxanaya yerləşdirilib.**

Qaynarinfo hadisənin təfərrüatını öyrənib. Məlum olub ki, qəzanı törədən "Toyota" markalı avtomobilin sürücüsü M.Əhmədov epilepsiya xəstəsidir.

Belə ki, M.Əhmədov avtomobili idarə edən zaman qıcolması tutub və o, tormoz əvəzinə qaz əyləcini sıxıb. Nəticədə idarəsində olduğu 90-FD-955 dövlət nömrə nişanlı "Toyota Prado" markalı avtomobilə nəzarəti itirdiyindən idarəetmədən çıxaraq yol kənarında hərəkətdə olan piyadanı vurub. Daha sonra isə yolun kənarında dayanmış 3 maşınla -"Opel", "VAZ-2107" və "VAZ-21015" markalı avtomobillə toqquşub.

O, qəsəbədə "Asqo" ləqəbli ilə tanınır.

# "Səmədin sənə verdiyi çörəyə heyif olsun"

## Sevda Əliqızı Əli Mirəliyevi mədəniyyətsiz adlandırdı



"Nə vaxta qədər təhqir edəcəksən? Sənə bir balaca hörmətim var idi. Onu da sildin apardın. Nəinki mənim, çox adamın hörmətini qazana bilməmisən. İndiyə qədər Səməd haqda ağzına gələni danışırsan. Ayıb deyil?! Axı Səmədlə birgə çörək kəsmisən".

**"Şərq" xəbər verir ki, bu sözləri müğənni Sevda Əliqızı həmkarı Əli Mirəliyev haqda söyləyib. O, açıqlamasına bunları da əlavə edib:** "İkincisi, nə verib ala bilmirsən Səməddən? Artıq yaşın yetmişi keçib. İnsan öləndə özü ilə rəhmət aparır. Sağlığında ağzına gələni danışdın, nələr dedin. Heç olmasa öləndən sorna "Allah rəhmət eləsin" de. Niyə ailəsi haqda bilmədiyin sözləri danışırsan? Deyirsən, həyat yoldaşı onu qoyub gedib. Mən o ailənin içindəyəm, hər şeyi yaxşı bilirəm. İradə ona gözəl xanım olub, qayğısına qalıb. O, Türkiyəyə bacısının yanına getdi. Səmədə dəfələrlə söylədi ki, bu şounu, toyları ar mənimlə birgə gedək, səni tək qoymaq istəmirəm. Səməd and içdi ki, yaxşıyam, sən get. Ay Əli, hansı millətdənsən? Azərbaycanlı olan insan ölənin arxasınca içindəki çirkin fikirlərini açıqlayıb deyərmi? Ona danışıq öyrətmisən? Pedaqoqsan, dilçisən ki, Səmədə danışıq öyrədirsən. Rəhmətlik rusdilli idi. Sənin rusdilli olmamağın bizim günahımız deyil. Kimsə ingilis dilində danışırsa, məgər o ingilisdir, azərbaycanlı deyil? Gah erməni dedin, gah da cuhut. Bilirsən ki, Səməd əslən Şamaxılıdır. Deməli, onun yas yerində göz yaşı tökməyin artistlik idi. Çünki üç gün sonra dalınca danışdın. Dirisindən əl çəkmədin, ölüsündən əl çək. Səməd ömür boyu sən başda olmaqla hamıya yaxşılıq edib. Özünün xeyriyyəçiliyini reklam etməyib, illərdir qocalar, körpələr, əlillər evlərinə yardım göstərir. De ki, bir dəfə də mən yaxşılıq etmişəm. Səməd öldü getdi, hamı ona rəhmət oxuyur. Yaxşılıqlarından danışırlar. Nə sənətin, nə mədəniyyətin, nə də mənəviyyatın var. Səmədin sənə verdiyi çörəyə heyif olsun".

**Samirə**

## "Problemlərim olanda çox insan güldü"

Anar Mədətov: "Şou-biznesdə elə adamlar var, onlara demək olar ki, keçmişini unutma"



**Prodüser Anar Mədətov "Söz Baz" verilişində qonaq olarkən həyatından söz açıb.**

"Şərq" xəbər verir ki, o bəzi insanların ona münasibətinin yaxşı olmadığını deyib: "Hər kəsə şamil etmirəm. Çox məsələləri bilirəm. Şou-biznesdə elə adamlar var, onlara demək olar ki, keçmişini unutma. Mənim problemlərim olanda çox insan güldü, sözbazlıq etdi, orda-burda danışdı. Adamlar kiminsə çətin vaxtında tapdalamağa çalışır. O zamanlarda ən yaxınlarımdan İradə İbrahimovanın bacısı Nigar İbrahimovanı sildim".

*Qeyd edək ki, bir neçə il öncə A.Mədətovun xanımından boşanmamış başqa biri ilə toyunun baş tutması haqda xəbərlər yayılıb. O, ilk xanımından rəsmən boşandığını söyləyib.*

## Xalq artistləri bir araya gəldi



**İki Xalq artisti Brilliant Dadaşova və Ağadadaş Ağayev müğənni Nüşabə Ələsgərlinin qızı Nigarın toyunda bir araya gəliblər.**

"Şərq" xəbər verir ki, B.Dadaşova həmkarı ilə videosunu paylaşaraq bu sözləri yazıb: "Ağadadaşdan çox nigaran idik. Şükür sağ-salamat yanımıza qayıtdı. Xalqımızın sevimlisi, gözəl sənətkardır".

*Qeyd edək ki, A.Ağayev bir müddət öncə xərçəng xəstəliyi ilə mübarizə aparıb. O, Türkiyədə bir neçə dəfə əməliyyat olunduqdan sonra sağalıb.*

## "Məndən yazmayın"

Rəhim Rəhimli mediadan uzaq durur



**Müğənni-bəstəkar Rəhim Rəhimli "Səhər-səhər" proqramında sənət fəaliyyətindən bəhs edib.**

"Şərq" xəbər verir ki, o bunları söyləyib: "Mediadan həmişə uzaq durmuşam. Bu günə qədər bir-iki jurnalistə danışmışam. Şou-biznes məclislərinə getmirəm. Çünki ən sonda söhbət ailəyə gəlib çıxır və narazılıq yaranır. Mənim anam, qardaşım var. Onlar da baxarlar, əsəbiləşərlər. Bu üzdən çalışmışam ki, mətbuatdan uzaq durum. Deyirəm, xahiş edirəm, məndən yazmayın".

# "Kimsənin çantasını daşıyan olmamışam"

## Nazilə Səfərli şou-biznesə öz hesabına gəldiyini söyləyib



Şairə Nazilə Səfərli növbəti açıqlaması ilə diqqət çəkib. O, jurnalist Vüqar Kamiloğluna müsahibəsində bir sıra məqamlara toxunub.

**"Şərq" xəbər verir ki, N.Səfərli şou-biznesə öz hesabına gəldiyini söyləyib: "Sadəcə işimi görmüşəm. Kimsənin çanta daşıyanı olmamışam. Məsələn, əvvəl musiqiçi və ya prodüser olur, sonra müğənniliyə başlayır.** Eləsi də var ki, ustadının yanında şagird kimi çalışır, sonra bir yana çıxır. Bəzi xanım ifaçıları "filankəsin müğənnisi" kimi tanıyırlar. Yəni kiminsə orkestrində çalışıb. Bir az yolunu azan kimi deyirlər, filankəsin kostyumunu tutan sən deyildin? Yəni məndə belə bir şey olmayıb. Onların da etdiyi başıaşağılıq deyil. Amma belə məqamlarda sənətkarın qarşısında dik-dik danışa bilməzsən. Gözəl ola bilərsən, şarmın da olar. Bunlar səni xalqa sevdirməz. Tanınmağa qalsa... Salfet də tanınır, əl silib atırıq. Hamı bilir ki, salfetdir. Bunsuz da olur. Əlimizi silməsək nə olacaq ki? Bir az gec quruyacaq. Tamaşaçı sənə möhtac olmalıdır. Efirə çıxanda izləyici düşünməlidir ki, görəsən o nə deyəcək, nə geyinəcək. Sənətkar ona deyirəm ki, bir il telefonunu söndürsün. Sonra ona zəng gəlsin ki, haradasan?"

# Prodüser Röyanı müdafiəyə qalxdı

*"Onlar elə toyxanalarda "çuşka" qalacaqlar*

Müğənnilər Zamiq Hüseynov və Röya Ayxanın mərhum Xalq artisti İlhamə Quliyevanın "Neylərsən?" mahnısını ifa etməsi müzakirə predmetinə çevrilib.

Rəqsanə İsmayılova bir vaxt həmin mahnını İlhamə xanımdan icazə alıb səsləndirdiyini söyləyib: "Allah İ.Quliyevaya rəhmət eləsin. Ölməz sənətkar həmişə yaşayacaq. Faiq Sücəddinovun əsərləri daim dillər əzbəri olub. Dəyərli bəstəkar, Tanrı sizə ömür versin. Bu mahnını İlhamə xanımın iznini alaraq oxudum. Sənət dostlarım da ifa ediblər. Xeyirli olsun. Hər kəsin öz ifa tərzi var. Əsas odur ki, belə əsərlər yaşayır və nəsildən-nəslə ötürülür".



**"Şərq" xəbər verir ki, aparıcı, psixoloq İlham Mirzəyev isə məsələ haqda bu sözləri yazıb:**

"İ.Quliyeva sənətini sevənlər, sizi xoş gördük. "Neylərsən?" onun ən sevdiyi mahnı idi. Çünki öz həyatından bəhs edirdi. Ona görə də bu əsərə öz möhürünü vurub dünyadan köçdü".

**Prodüser Tarix Əliyev (Tolik) Röyaya dəstək paylaşımı edib. O, bunları deyib:**

"Onlar heç kim olmayacaqlar. Nə qədər adını çəkib, özlərini səninlə bir görmək istəyəcəklər elə toyxanada "çuşka" qalacaqlar. Söhbət bir müğənnidən deyil, Röyanın adını çəkən hamıdan gedir. Özünüzü tapın! Röya özünü çoxdan təsdiqləyib. İstər sənətdə, istərsə də dövlət yanında".

**Səhifəni hazırladı: Samirə**

# Yaddaş qırılır

## Səhərlər yuxudan oyanmaq istəmirsizsə, siz depressiyadasız



Pandemiyada depressiyaya düşməyən insan demək olar olmadı.Depressiyada olan insan həyatda bəzən normal görünsə də, özünə dərin qapılan və bağlanan bir şəxsdir.

**Bəs özündə depressiya aşkar edənlər nə etsin?**

İlk növbədə buna sevinsin. Çünki özündə depressiyanı vaxtında aşkarlayan insan xilas oldu hesab edilə bilər. Orqanizm bu halı xəstəlik kimi qəbul etmir, nə baş verdiyini anlamır, ona görə beynin işində pozulmalar başlayır. Beyin daxili hisslərlə xaricdə yaşananları qarışdırır, hansının real olduğunu bilmir.

*Medicina.az əsl klinik depressiyanın 8 əsas əlamətini təqdim edir.*

**Baxın, bu halların hansı sizdə var?**

**1**. Heç bir şeyə diqqəti cəlb etmək olmur, insan hiss edir ki, həyat çəkilməyəcək qədər ağırdır, qəlizdir və o yorulub.

**2**. Depressiya əlamətləri əsas səhərlər kəskinləşir. İnsan gün ərzində fikirlərdən yorulub yatır, yuxuları qarışıq olur və səhər gözünü açan kimi sanki burulğana düşmüş kimi özünü hiss edir. Yenə eyni həyat, yenə gün başladı deyib, ayağa qalxmaq istəmir. İnsan yuxudan ayılmamağı arzulayır.

**3**. Yaddaş qırılır. nə yediyini unudursan, nə yazdığını bilmirsən, 2 dəqiqə sonra nə edəcəyini xatırlamırsan. Getmək istəyirsən amma hara. Axşam baş verənləri səhər xatırlamırsan.

**4**. Hər dəfə bədənin müxtəlif nahiyələrində ağrılar olur. Analizlər, müayinələr isə ciddi bir şey göstərmir. Bu serotonin defisitindən yenə də beynin işinin pozulmasıdır. Ağrılara qarşı həssaslıq artır. Serotonin çatmayanda insanın əzələsindən tutmuş daxili orqanlarına kimi hər yeri ağrıyır

**5**. Doğmalarla, dostlarla ünsiyyət çətinləşir, özümüzü cilovlaya bilmirik. Deməyə sözümüz yoxdur. Yad insanlar isə bizi qıcıqlandırır. Hər kəsin həyatı bizə maraqsız olur. Heç bir xoş söz eynimizi açmır. Hətta kassadakı satıcı belə sizi qəzəbləndirir.

**6**. Yuxu həmişə pozulur. Yuxuya getmək çətindir, gecə boyu oyanırsız, səksənirsiz. Kabus yuxular görürsüz

**7**. Güzgüyə baxmaqdan qaçırsız, xarici görünüşünüz maraqlı deyil, təzə heç nə almırsız. Bunlar maraqsız və lazımsız gəlir. Ətrafınız sizə özünə bax, saçına əl gəzdir dedikdə əsəbləşirsiz. Beyninizdə mən eybəcərəm düşünürsüz. Nə etsəm də xeyri yoxdur

**8**. Dərin mərhələdə insan özünü qaranlıq qapısız, dar bir yerdə bağlanmış hiss edir. Ölsəm hər şet bitsə düşünür. Və artıq heç kimə dərdini demir. Kömək istəmir. Amma ürəyinin dərinliyində kömək əlini gözləyir.

**Nə etməli?**

Depressiyanı pis əhval, yuxusuzluq, başqa xəstəlik, inciklik, yorğunluq, xasiyyətlə əlaqələndirib, özü keçib gedəcək kimi düşünmək yanlışdır.

Bu zaman beyin lap özünü itirir və gücü tükənir. O bədəni lazımi qədər idarə edə bilmir.

Depressiyada olan insanı psixiatr və psixoterapevt birlikdə müalicə etməlidir. Psixiatr dəli, ruhi xəstə həkimi deyil. Depressiya da ağır ruhi xəstəlik deyil. Depressiyada olan insanın ağlı itmir. Amma bütün bu xəstəlikləri psixiatrlar yaxşı bilir və müalicəni də onlar təyin edir. Yanaşı olaraq psixoloq, psixoterapevtlə söhbət, seanslar keçirilir.

Ümumilikdə müalicə 6 ay -1 il çəkir və insan tamam sağalır. Ya əvvəlki enerjili, şən insana qayıdır, ya da ondan da yaxşı güclü bir insana çevrilir.

27 iyul 2021-ci il xeyirxah əməlləri ilə ürəkləri fəth etmiş, ömrünü Allahın buyurduğu kimi yaşamış və İslam dininin inkişafına həsr etmiş Hacı Xanmirzə Bağırov Xatəm oğlunun 70 illiyi tamam olub.



Bu münasibətlə Hacı Xanmirzəni həyat yoldaşı Reyhan xanım, oğlanları: Kamran, Natiq, Bəhruz, qızı Mədinə xanım, kürəkəni Əsgər, gəlinləri: Aynurə, Nərgiz, Kəmalə, nəvələri: Ləman, Əlirza, Mehdi, Həsən, Abbasəli, Mərziyyə və Məhəmmədhüseyn ürəkdən təbrik edir, yubilyara cansağlığı, bərəkətli və uzun ömür, sevinc dolu günlər arzulayırlar.

## "Zövqsüz..."

Rihanna geyiminə görə qınandı



**Amerikalı pop müğənni və sahibkar Rihanna 90-cı illərin üslubunda açıq-saçıq bir geyimlə Nyu-York küçələrində gəzməsi ilə sosial şəbəkədə sərt tənqid olunub.**

Milli.Az xəbər verir ki, şəkillər və şərhlər Daily Mail-də yerləşdirilib.

33 yaşlı məşhur alt paltarsız, çəhrayı rəngli üst paltar və bir çox ciblə bəzədilmiş The Attico markalı çantalı xaki şalvar geyinib. Nəşrin oxucuları materialın altındakı şərhlərdə müğənninin görünüşünü tənqid ediblər. "Gözlərim ağrıyır. Dəhşətli geyim ", "Pis marketinq strategiyası", "Zövqsüz, kişi dosta ehtiyacın var", "Bu şalvar mənim kombinezonuma bənzəyir və bu axmaq şapkaya uyğun deyil" deyə yazılıb.


**Beynəlxalq İxtiraçılıq və Biznes İnstitutu**

**KURSLAR**

**-MÜHASİBAT** (2 AY)

**-Mobil telefonların təmiri** (3 ay)

**-KOMPYUTER** (1-3 AY)

**-KOSMETOLOGİYA** və **VİZAj** (3 AY)

**-KİŞİ** və **QADIN BƏRBƏRİ** (1-3 ay)

**-Dizayn** (3-6ay)

**-Masaj** (3 ay)

**-Biçmə - Tikiş** (3 ay)

**-Məktəb Psixologiyası** (12 ay)

**Tel: (012) 489-08-84**

**Mob: (070) 241-28-67**

**www.az-baku.com**


## Ən populyar smartfon istehsalçılarının adları açıqlanıb



**2021-ci ilin ikinci rübündə Avropa ölkələrində ən populyar smartfonların adları açıqlanıb.**

Trend-in məlumatına görə, Avropaya smartfon tədarükünün həcminə görə Çinin "Xiaomi" şirkəti lider olub. Hesabat dövründə regionda 12 milyondan çox smartfon tədarük etməklə ümumi bazar payının 25 faizini əhatə edib.

"Samsung" 24 faiz bazar payı ilə liderliyi əldən verib. Şirkət bu ilin ikinci rübündə Avropaya 11 milyondan çox smartfon tədarük edib.

Üçüncü yerdə 9 milyon smartfon və 19,2 faiz bazar payı ilə "Apple" qərarlaşıb.

*Qeyd olunub ki, "Xiaomi" smartfonlarına ən böyük tələbat Rusiya, Ukrayna, İspaniya və İtaliyada qeydə alınıb.*

## Meşədə təcavüzə uğrayıb öldürüldü!

Rəfiqəsi telefonda hər şeyi eşidib

*(Əvvəli səh: 16-da)*



**Aralarında Shanaenin yoldaşları, könüllülər, polis itlərinin də olduğu axtarış-arama qrupları, Shanae Brooke Edwardsın cəsədini Mtatsminda dağının yaxınlığında tapır.**

Qadının gəzməyə çıxan zaman hücuma məruz qalmamışdan öncə ABŞ-dan bir Rəfiqəsi ilə telefonda danışdığı ortaya çıxıb.

Rəfiqəsi Edwardsın "Əllərini üzərimdən çək! Lütfən getməyimə icazə ver, tamam... lütfən yalnız gedim" dediyini telefonda eşidir.

Telefon bir anda kəsilir və Gürcüstan vətəndaşı olduğu açıqlanan təcavüzkar gənc qadına təcavüz edib, öldürür. Qorxunc xəbəri alan müəllimin yaxınları kədərə boğulur.

31 yaşlı Shanae Brooke Edwardsın paytaxt Tiflisdəki evinin önünə çiçəklər düzülür. Gürcüstan daxili işlər nazirliyi, Edwardsın öldürülməsi ilə bağlı istintaqa başlandığını bildirib. Nazirlik istintaqa bağlı detalları açıqlamayıb.

*Təbiət vurğunu olan Edwards, Instagram hesabından səyahətlərini paylaşırdı. Motosiklet də istifadə edən qadının çoxlu sayda ölkəyə getdiyi gözə dəyir.*


Baş redaktor: **Akif Aşırlı**

Baş redaktorun ı müavini: **Yusif Nəzərli**

Redaktor: **Ayyət Əhməd**

**Reportyorlar qrupu:** Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Yeganə Bayramova, Kənan Eynuroğlu, Kənan Novruzov, Aynurə Pənahqızı

**Texniki heyət:** Rüfət Dadaşov, İmamcan Əliyev

Qəzet "**Şərq**"in kompyuter mərkəzində yığılır, səhifələnir və "**Azərbaycan**" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb. Lisenziya: 535 **www.sherg.az** e-mail: **sherq-1996@mail.ru**

Ünvan: Mətbuat prospekti, "**Azərbaycan**" nəşriyyatı. **Telefon: 447-32-41 538-44-50, internet 538-44-15, İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
SWIFT BIK AII-BAZ2X h/h AZ17AIIB38070019441100466111 Kod 200112 M/H AZ37NABZ01350100000000001944
VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 402



# Sonuncu əməliyyat Bakıda oldu

Azərbaycanlı qadın arıqlamaq üçün 16 dəfə əməliyyat keçirib

**Azərbaycanda qadın pasiyent 15 dəfə metabolik əməliyyat keçirməsinə baxmayaraq, nəticələrindən razı qalmayıb.**

O, ilk dəfə şəkərli diabetdən qurtulmaq üçün bir neçə dəfə İsveçrədə bariatrik əməliyyatlar keçirib. (Medicina.az)

Lakin bu əməliyyarlar uğurlu alınmayıb, əlavə problemlər yaradıb. Bu problemləri aradan qaldırmaq üçün yenidəm təkrar başqa əməliyyatlar etdirmək məcburiyyətində qalıb. 15-ci əməliyyatı Türkiyədə edilib, ona son tamamlayıcı əməliyyat üçün bir dəfə də gələrsən deyilsə də, pandemiya səbəbindən pasiyent Bakıda bu son əməliyyatı etdirmək qərarına gəlir. Sayca 16-cı əməliyyatı bariatrik cərrah Taryel Ömərova etibar edir. Həkim bildirir ki, artıq bu son əməliyyat olacaq. Çünki Türkiyədəki 15-ci əməliyyat uğurlu idi, bu tamamlayıcı hesab edilir. Mədəkiçiltmə əməliyyatının bir dəfədən uğurlu nəticə alması üçün düzgün cərrah mütəxəssisi seçmək önəmlidir. Əks təqdirdə əməliyyat əməliyyatı gətirərək, xəstəni saysız-hesabsız əziyyətlərə sala bilər. Piylənmə taleyiniz olmamalıdır.

# Vaksin olunmayanlara çörək satılmayacaq



**İstanbulun 6 qəsəbəsində peyvənd olunmayanlara çörək satılmayacağı ilə bağlı qərar qəbul edilib.**

Medicina.az xəbər verir ki, qərar hələ ki Bakırköy, Güngörən, Bağcılar, Bahçelievler, Bayrampaşa və Esenlər qəsəbəsində həyata keçiriləcək.

*Qeyd edək ki, Türkiyədə son günlərdə virusa yoluxanların sayında kəskin artım müşahidə olunur. Bu üsulla insanları peyvənd olunmağa cəlb etmək istəyirlər.*

# Qarnında digər əkizi olan qız doğuldu

Uğurlu əməliyyatdan sonra ana və körpə evə buraxılıb



**Tibdə belə nadir hadisə yarım milyon doğuşdan bir olur. Medicina.az xəbər verir ki, İsraildə həkimlər hamilə qadının USM müayinəsində bətndə olan körpənin qarnının anormal böyüdüyünü görmüşdülər.**

Uşaq doğulduqdan sonra həkimlər onun qarnını palpasiya edərək, körpənin qarnında nəsə tərpəndiyini hiss edirlər. USM və rentgen göstərib ki, qarın boşluğunda bir inkişaf etməmiş embrion da var. Təcili əməliyyatla qızın qarnında qismən inkişaf etmiş əkiz tay embrion xaric edilir. Uğurlu əməliyyatdan sonra ana və körpə evə buraxılıb.

Tibdə buna fetus in fetu - döl içində döl sindromu deyilir. Bu fenomenin dəqiq izahı hələ yoxdur.



# Türkiyəni üzən foto...

*Qadın evinin yandığını bilmir*





**Antaliyanın Manavqat qəsəbəsində yanğınlar 8-ci gündür davam edir. Bir çox məhəllədə evlər istifadə edilməz hala gəlib. Yanğında külə dönən evinin önündə yatan adamın fotosu ictimai mediada minlərlə istifadəçi tərəfindən paylaşılıb. Qadının Fatma Öksüzoğlu (87) olduğu bildirilir. Öksüzoğlu "alzheimer" xəstəsidir və evinin yandığını xatırlamır.**

Anasının tək uşağı olduğunu söyləyən Məqbula Öksüzoğlu hadisəni belə nəql edir: -Anamla birlikdə qalıram. İkimiz birlikdə yaşayırıq. Yanğının olduğu gecə yatmadıq. Gecə saat 2-yə kimi tüstü hər yeri basdı. Axırdakı heyvanları çıxardıq. Avtomobilə minib dənizə doğru getdik. Uşaqlarım evə baxmaq üçün döndülər, amma söndürə bilmədilər. Evimiz tamamilə kül oldu. Həyat yoldaşım 4 ay əvvəl vəfat edib. Anamla birlikdə qalırdıq".

Anasının "alzheimer" və təzyiq xəstəsi olduğunu ifadə edən Öksüzoğlu, "Evinin yandığından xəbəri yoxdur. İlk dəfə "ana, evimiz yandı" dedim. "Böyük evmi yandı?" dedi, sonra unutdu. İndi qohumlarımın yanında qalıram. Kənddə açıq ev tapsaq orada qalacağıq. Anamı götürmək üçün gəldilər, verməmdim. Verməərəm, zatən məni görmədən dayana bilməz. Məni "ana" deyə çağırır. Mən hardayamsa, o da orada olacaq. Bir anama baxmayacaq qədər zəif deyiləm. Bir o, bir də mən varam. Məndən başqası baxa bilməz ona" deyə bildirib.

**Turan**

# Meşədə təcavüzə uğrayıb öldürüldü!

Yoldaşı telefonda hər şeyi açıqladı



**Avstraliyalı Shanae Brooke Edwards, ölkəsindən təxminən 10 min kilometr uzaqlıqda- Qafqaz ölkəsi olan Gürcüstanda ingilis müəllimi işləyirdi.**

31 yaşlı qadın, paytaxt Tiflis yaxınlığında- Mtatsminda dağında 30 iyul cümə günü gəzintiyə çıxıb və bir daha ondan xəbər alınmayıb.

Təhlükəsizlik kamerası görüntüsündə Edwardsın son olaraq yaşadığı binadan çıxarkən görünüb.

Saçlarını toplamış gənc qadın qara bir şərq üslubunda paltar geymişdi və kürəyində də yaşıl bir çanta daşıyırdı. İtkin elanı verilən Edwards üçün qruplar səfərbər olub. Əvvəlki gün paylaşdığı son Instagram fotosunun altına "Sevinc" yazan Edwardsı maraqlananların diqqətini qısa müddətdə bir Facebookdakı paylaşma çəkib. "Expats" adlı Facebook qrupundan bir qadın Mtatsminda parkında qadın qışqırıqları eşitdiyini yazıb, polisin təcili şəkildə hərəkətə keçməsini istəyib.

**Turan**

*(Davamı səh: 15-də)*

# İlk dəfə birlikdə görüntüləndilər



**"The Suicide Squad" filminin premyerasına qatılan müğənni Rita Ora ilk dəfə sevgilisi rejissor-aktyor Tayka Vaytiti ilə birlikdə görüntülənib.**

Axşam.az xəbər verir ki, cütlük qırmızı xalça üzərində əl-ələ tutaraq kameralara poz verib.

*Qeyd edək ki, Rita Ora 2021-ci ilin əvvəlində fransalı prodüser Romain Qavrasla münasibətini sonlandırıb. Tayka Vaytiti isə 2018-ci ildə keçmiş həyat yoldaşı Çelsi Uinstenlidən boşanıb.*